QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 221 (6185) 10 dekabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# "Biz bu həmrəylik və dəstək jestini yüksək qiymətləndiririk"

## Prezident İlham Əliyev İtaliya Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin nümayəndə heyətini qəbul edib



Bax2

## Rəcəb Tayyib Ərdoğan Azərbaycana rəsmi səfərə gəlib

Bax 3



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 9-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü...

## Almaniyanın "ZDF" kanalında işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarından reportaj yayımlanıb

Bax 7



Almaniyanın "ZDF" telekanalında Azərbaycanın işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarından reportaj yayımlanıb. Kanalın Qarabağ bölgəsinə ezam olunmuş müxbiri Yörq Braze Azərbaycanın ...

## Azərbaycanın Qələbə paradı: Cənubi Qafqazda sülhün təminatçılarının töreni

*Azərbaycanın milli dövlətçilik tarixində ilk dəfə belə parad keçiriləcək. Odur ki, bu parad siyasi, mənəvi, hərbi, suverenlik və başqa sahələr üzrə yükünə...*

Bax 6



## Ermənistanda hakimiyyət çəkişmələri xarici siyasət haqqında nə deyir?




Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) eksperti Vasif Hüseynovun ABŞ-da yayımlanan "Eurasia Review" nəşrində "Ermənistanda hakimiyyət çəkişmələri xarici siyasət haqqında...

Bax 12

## Niderland parlamentinin erməni təəssübkeşliyi

Bax 13



Ermənistanın sentyabrın 27-də növbəti hərbi təxribatından sonra Azərbaycan Ordusunun 44 gün davam edən əks-hücum əməliyyatları noyabrın 10-da tarixi...



Bax 12

## Seyran Ohanyan Serj Sarkisyanı mart hadisələrinin təşkilatçılığında ittiham edir

Ermənistanda ictimai-siyasi vəziyyət yenidən gərginləşib. Keçmiş müdafiə naziri Seyran Ohanyanla Serj Sarkisyan arasında...

## Suriyalı ermənilər 3 ölkədə terror aktlarına hazırlaşır



Bax 14

## Ermənistana dəstək verən dövlətlər işğalçı ilə eyni dəyərləri bölüşdüklərini nümayiş etdirirlər



Bax 10

## Ronaldodan Messiyə göz dağı!



Bax 16

# "Biz bu həmrəylik və dəstək jestini yüksək qiymətləndiririk"

## *Prezident İlham Əliyev İtaliya Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefanonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev dedi:***



-Sizin ölkənizə çox uğurlu səfərim xatirimdədir. Qonaqpərvərliyinizə görə bir daha təşəkkür edirəm. Səfər məndə olduqca müsbət təəssürat yaratmışdır. Səfər zamanı imzalanmış sənədlər, əlbəttə ki, bizim tərəfdaşlığımızı gücləndirəcəkdir. Mən ölkələrimiz arasında strateji tərəfdaşlığın yeni formatı ilə bağlı imzalanmış sənədi xüsusilə qeyd etmək istəyirəm.

Ölkənizin Prezidenti, Baş naziri, parlamentin hər iki palatasının sədrləri və Romanın meri ilə keçirdiyim görüşlər çox müsbət olmuşdur.



Manlio Di Stefano: Bir neçə gün öncə Siz İtaliyadan olan nümayəndə heyətini qəbul etmisiniz.

Prezident İlham Əliyev: Bəli, mən İtaliya parlamentinin sədr müavininin başçılığı ilə müxtəlif siyasi qrupları təmsil edən nümayəndə heyətini qəbul etmişəm. Onlar Ağdamda və Gəncədə olmuşlar. Birinin işğal nəticəsində viran qoyulduğu, digərinin isə müharibə vaxtı ballistik raket hücumu nəticəsində çoxsaylı qurban verdiyi bu iki şəhərə səfər etməklə bağlı onların qərarı məni təsirləndirdi.

Bizim münasibətlərimizə gəldikdə, hesab edirəm ki, bunun gözəl gələcəyi var. Bu günədək biz siyasi, iqtisadi və enerji təhlükəsizliyi sahələrində böyük uğura nail olmuşuq. Biz Cənub Qaz Dəhlizinin sonuncu hissəsini tezliklə başa çatdıracağıq. Bununla da Azərbaycan və İtaliya gələcək onilliklər ərzində enerji sahəsində çox yaxın tərəfdaş olacaqdır.

Bu, müxtəlif ölkələrdən ibarət geniş bir qrupun birgə səyləri nəticəsində ərsəyə gələn çox əhəmiyyətli nailiyyətdir. Bildiyiniz kimi, biz hər il Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurasının toplantısını təşkil edirik və İtaliya hər zaman burada yüksək səviyyədə təmsil olunur. Həmin toplantıların sayəsində biz 3500 kilometr uzunluğunda boru kəmərini inşa etməyə müvəffəq olduq. Kəmərin başlanğıcı Bakıda, sonu isə İtaliyadadır.

Əlbəttə, biz əməkdaşlığımızı dərinləşdirmək arzusundayıq. Bilirəm ki, sizin səfərinizin gündəliyi olduqca genişdir. Biz ölkələrimiz arasında gözəl siyasi münasibətlərimizdən faydalanaraq iqtisadi əməkdaşlıq və daha çox İtaliya şirkətinin Azərbaycanda fəaliyyətə cəlb edilməsi məsələlərini nəzərdən keçirmək niyyətindəyik. Buraya ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, Azərbaycanın dağıdılmış şəhərlərinin bərpasına dair böyük planlarımız da daxildir.

Çünki bizim yeni infrastrukturun yaradılmasına - yeni yolların, dəmir yolu xətlərinin, hava limanlarının, məktəb və xəstəxanaların inşasına ehtiyacımız var.

Bunun səbəbi ermənilər tərəfindən hər şeyin dağıdılması, yerlə-yeksan edilməsidir. Buna dair kifayət qədər videomaterial var. Onlar vəhşi kimi davranmış və şəhərlərimizi darmadağın etmişlər. Bu da Azərbaycana qarşı olan təcavüzkar siyasətin bariz nümunəsidir.

Biz yenidənqurma işləri ilə bağlı ilk addımlar atmışıq. İlk müqavilələr artıq bağlanıb və dediyim kimi, biz işğaldan azad olunan ərazilərdə dost ölkələrdən olan şirkətlərlə çalışacağıq.

İlk müqavilələr türk şirkətləri ilə bağlanılıb və bu da təbiidir, çünki Türkiyə qardaş ölkədir. Ümidvaram ki, növbəti müqavilələr italyan şirkətləri ilə imzalanacaq. Bu da təbiidir. Çünki İtaliya Azərbaycanın yaxın dostudur. Ölkələrimiz arasında çoxillik diplomatik münasibətlərin mövcudluğu dövründə və xüsusilə də müharibə zamanı biz sizin mövqeyinizin şahidi olduq. Ölkənizin parlament nümayəndələrinin müharibənin başa çatmasından bir aydan az vaxt keçməmiş Azərbaycana səfəri bizim güclü dostluq münasibətlərimizi nümayiş etdirir. Biz bu həmrəylik və dəstək jestini yüksək qiymətləndiririk.

Bir neçə gün əvvəl görüşdüyüm nümayəndə heyəti Avropa İttifaqı məkanından olan və müharibədən sonra ölkəmizə gələn ilk qonaqlar idi. Əminəm ki, bu dostluq jestinin praktiki təzahürü olacaq, çünki bu gün biz təkcə enerji sektoru deyil, həmçinin qeyri-enerji sektoru haqqında danışırıq. Azad edilmiş torpaqlarda böyük potensial kənd təsərrüfatı, turizm, bərpa olunan enerji mənbələri ilə bağlıdır. Artıq söylədiyim kimi, böyük infrastruktur layihələri də olacaq. İndi biz həmin ərazilərin bərpa və yenidənqurma planlarını hazırlayırıq. Əminəm ki, biz çox uğurla işləyəcəyik.

Həmçinin bildirmək istərdim ki, İtaliya parlamentarilərinin səfəri Azərbaycan cəmiyyətində çox yüksək dəyərləndirildi. Çünki təsəvvür edin, insanlar bütün dəstək əlamətlərini çox böyük diqqətlə izləyirlər, ona həssaslıqla yanaşırlar. Bir sözlə, bütün cəmiyyət həmin səfəri dəstəyin təzahürü kimi qəbul etdi. Həmçinin insanlar qeyd edir və mən onların rəyi ilə razıyam ki, qonşularınızdan bəziləri parlamentdə Dağlıq Qarabağın tanınması ilə bağlı müəmmalı qətnamələr qəbul edirlər. İtaliyanın millət vəkilləri Azərbaycana hörmət və ehtiramını ifadə etmək, Azərbaycan xalqının əziyyətlərini bölüşdüyünü bildirmək üçün Ağdama getdilər, Gəncəyə səfər etdilər.

Dağlıq Qarabağın tanınmasına gəldikdə isə, hamı bilir ki, hətta Ermənistan həmin qanunsuz strukturu tanımayıb. Buna görə, əgər hansısa ölkə Dağlıq Qarabağı tanımaq istəyirsə, onlar öz ölkəsinin daxilində müəyyən addımlar atsınlar. Onlar öz ölkəsində müəyyən ərazini ayıra bilər və Azərbaycanda yox, öz ölkəsində ikinci erməni dövlətini yarada bilər.

Bir sözlə, bu, bir daha göstərir ki, ölkələrimiz arasında dostluq və xalqlarımız arasında qarşılıqlı müsbət yanaşma artıq reallığa çevrilib. Biz, həmçinin sizin səfərinizi bunun yaxşı əlaməti kimi dəyərləndiririk. Əminəm ki, səfərinizin çox müsbət nəticəsi olacaq və biz bütün sahələrdə güclü əməkdaşlıq məqsədilə növbəti 5-10 il üçün gündəliyimizi lazımi şəkildə tərtib edəcəyik. Bir daha, Azərbaycana xoş gəlmisiniz.

Manlio Di Stefano: Sağ olun, cənab Prezident. Əvvəlcə, icazə verin bildirim ki, bu gün burada olmağımdan şərəf hissi duyuram. Səfərim cəmi 24 saatlıq olsa da, onu tam şəkildə təşkil etdiyinə görə sizin Hökumətə minnətdarlığımı bildirirəm. Dünən mən artıq xarici işlər naziri ilə görüşdüm. Məmnun qaldım və biz bir çox sahələrə aid olan məsələlər ətrafında fikir mübadiləsi apardıq. Bu gün mənim digər nazirlərlə görüşmək imkanım olacaq. Bu, aramızda olan əməkdaşlığın real təzahürüdür. İcazə verin, əvvəlcə Sizə və xalqınıza müharibə qurbanları ilə əlaqədar başsağlığımızı verim. Bu, həqiqətən şiddətli müharibə idi və biz İtaliyada bunu böyük narahatlıqla izlədik. Hətta təsəvvür etmək çətindir ki, bu müharibə İtaliyada nə dərəcədə hiss olunurdu, çünki dünyanın bu bölgəsini istənilən mənada özümüzə çox yaxın hesab edirik.

Biz çox çalışdıq ki, hadisələrə hər hansı siyasi rəng qatmayaq. Biz, sadəcə, ölkəmizə nəyin baş verdiyi ilə əlaqədar həqiqəti söyləməyə çalışdıq. Məmnunam, Siz də siyasi mövqeyimizi müsbət dəyərləndirdiniz və o, BMT-nin qətnamələrinə, bir sözlə, sənədlərdə yazılanlara əsaslanır. Təbii ki, atəşkəsin imzalanması bizim hamımıza rahatlıq gətirdi. Hesab edirik ki, bu, birinci və ən vacib məsələ idi. Çünki bilirsiniz, qurbanların sayının artması hər kəs tərəfindən hər zaman müsbət qarşılanır. Hazırda biz üçtərəfli Bəyanatdakı müddəaların icrasına yardım etməkdə öz imkanlarımızı təmin etməyə hazır olduğumuzu bildiririk. Hesab edirik ki, bundan sonra görəcəyimiz bütün işlər üçün yaxşı başlanğıc nöqtədir.

# Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan birgə şam ediblər



Dekabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan birgə şam ediblər.




# Rəcəb Tayyib Ərdoğan Azərbaycana rəsmi səfərə gəlib




Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 9-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər qarşıladılar.

# Xarici işlər naziri Ceyhun Bayramov İran Prezidenti Həsən Ruhani ilə görüşüb



Dekabrın 9-da İran İslam Respublikasına rəsmi səfəri çərçivəsində xarici işlər naziri Ceyhun Bayramovun İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə görüşü keçirilib. Prezident Həsən Ruhani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə səmimi salamlarını və xoş arzularını çatdırdı. Prezident Həsən Ruhani Azərbaycanın ərazilərinin işğaldan azad olunmasını məmnunluqla qeyd etdi. İranın hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyi vurğulandı.

Görüşdə iki ölkə arasında iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsinin əhəmiyyəti qeyd olundu. Qonşu və dost ölkələrimizin həyata keçirməyə çalışdığı beynəlxalq əhəmiyyətli iqtisadi layihə olan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin tərkib hissəsi olan Rəşt-Astara dəmir yolunun inşasının sürətləndirilməsinin zəruriliyi vurğulandı.

Nazir Ceyhun Bayramov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səmimi salamlarını İran İslam Respublikasının Prezidentinin diqqətinə çatdırdı. Nazir dost və qonşu İranın Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstəyi yüksək qiymətləndirdi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması və sərhədin bərpa olunmasının ölkələrimiz arasında əməkdaşlıq layihələri üçün yeni imkanlar açdığı qeyd olundu. Azərbaycan və İran arasındakı sərhəd dostluq və iqtisadi inkişaf sərhədi adlandırıldı.

# İqor Korotçenko: Prezident İlham Əliyev Azərbaycanın hərbi qələbəsində aparıcı rolu oynayıb



***Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi Prezident İlham Əliyev Azərbaycanın əldə etdiyi hərbi qələbədə aparıcı rolu oynayıb. "İki sahil" Trend-ə istinadən xəbər verir ki, bunu rusiyalı hərbi ekspert, "Natsionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko deyib.***

Onun sözlərinə görə, qələbə qazanmış güclü ordunun yaradılması da məhz Prezident İlham Əliyevin müstəsna, fərdi nailiyyətidir: "Prezident İlham Əliyev dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi ölkənin müharibə ilə üz-üzə qalacağı təqdirdə döyüşə hazır ola bilməsi üçün hər şeyi edib". Üçtərəfli bəyanatın imzalanmasından danışan ekspert bildirib ki, bu sənədi qeyd-şərtsiz kapitulyasiya aktı adlandırmaq olar: "Üçtərəfli bəyanatın imzalanmasından sonra Azərbaycanın ərazi bütövlüyü siyasi yolla bərpa olundu. Bu siyasətin zəfəridir, dövlət rəhbərinin zəfəridir, Ali Baş Komandanın zəfəridir".

İ.Korotçenko əlavə edib ki, Prezident İlham Əliyev Azərbaycan və dünya tarixinə 30 illik erməni işğalından sonra ərazi bütövlüyünü bərpa etmiş dövlət başçısı kimi düşəcək: "İşğaldakı ərazilərin azad edilməsi turizm, aqrar-sənaye sektorlarının inkişafına kömək edəcək və Azərbaycanı iqtisadiyyatın inkişafında yeni nailiyyətlərə gətirib çıxaracaq".

# YAŞAT" Fonduna bir günə 1,5 milyon manat vəsait ianə edilib




Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - "YAŞAT" Fonduna bir gün ərzində 1,5 milyon manat vəsait ianə edilib. Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Qeyd edək ki, Fond Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 8 dekabr tarixli Fərmanı əsasında yaradılıb. Əsas məqsəd şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsidir.

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına “Azərbaycanın Milli Qəhrəmanı” adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



***Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraqqərara alıram:***

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçularına “Azərbaycanın Milli Qəhrəmanı” adı verilsin:

Həşimov Polad İsrayıl oğlu - general-mayor (ölümündən sonra)
Mirzəyev İlqar Anzor oğlu - polkovnik (ölümündən sonra)
Hüseynov İbad Mövsüm oğlu - ehtiyatda olan baş çavuş.

## Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına “Vətən Müharibəsi Qəhrəmanı” adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraqqərara alıram:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçularına “Vətən Müharibəsi Qəhrəmanı” adı verilsin:

Mehdiyev İlham İsmayıl oğlu - general-leytenant
Mirzəyev Hikmət İzzət oğlu - general-leytenant
İslamzadə Namiq Sərəfruz oğlu - general-mayor
Məmmədov Zaur Sabir oğlu - general-mayor
Seyidov Kənan Əlihüseyn oğlu - general-mayor
Cahangirov Ələkbər Məhəmməd oğlu - polkovnik
Ələkbərov Babək Mürsəl oğlu - polkovnik
Hüseynov Telman Əsgər oğlu - polkovnik
İsrayılov Raqif İbadulla oğlu - polkovnik
Qurbanov Babək Vahid oğlu - polkovnik
Mövlanov Nizami Bəydəmir oğlu - polkovnik
Nudirəliyev Zaur İsmayıl oğlu - polkovnik (ölümündən sonra)
Sultanov Vüsal Eynulla oğlu - polkovnik
Yusibov Zəfər Qəzənfər oğlu - polkovnik
Zeynalov Zaur İlham oğlu - polkovnik
Quliyev Zaur Hikmət oğlu - 1-ci dərəcəli kapitan
Abdurahmanov Əfqan Ağasəf oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Baxışov Səxavət Mamed oğlu - polkovnik-leytenant
Camalov Ceyhun Fikrət oğlu - polkovnik-leytenant
Cəfərov Ramiz Sübhan oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Əkbərov Orxan Nadir oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Əliyev Anar Vaqif oğlu - polkovnik-leytenant (ölümündən sonra)
İbrahimov Xaliq Arif oğlu - polkovnik-leytenant
İmrəliyev Füzuli Şiraslan oğlu - polkovnik-leytenant
Qasımov Faiq Qaçay oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Qasımov Ramiz Vaqif oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Qebedov Elnur Ceerov oğlu - polkovnik-leytenant
Mirzəyev Anar Mehman oğlu - polkovnik-leytenant
Nadirov Rəşad Soltanağa oğlu - polkovnik-leytenant
Ağayev Vüqar Əhməd oğlu - mayor (ölümündən sonra)
Bağıyev Mirdamət Səristan oğlu - mayor
Bayramov Elbrus Eyvaz oğlu - mayor (ölümündən sonra)
Heydərov Amid Rəbbil oğlu - mayor (ölümündən sonra)
Həsənov Saleh Valeh oğlu - mayor
Hüseynquliyev Şahin Yusif oğlu - mayor
Hüseynov Zaur Rahat oğlu - mayor
Qaflanov Şixamir Oruc oğlu - mayor (ölümündən sonra)
Qasımov Anar Misir oğlu - mayor
Quliyev Röyal İlham oğlu - mayor
Qurbanov Səfər Qurban oğlu - mayor
Mansurov Elçin Elşən oğlu - mayor (ölümündən sonra)
Məmmədov Anar İbrahim oğlu - mayor
Orucov İlqar Rəhman oğlu - mayor
Səfərli Gündüz Ağamməd oğlu - mayor
Səfərov Elvin Sərraf oğlu - mayor
Şirinov Elnur Ramiz oğlu - mayor
Şükürov Anar Mehman oğlu - mayor (ölümündən sonra)
Abdullayev Rəşad Arif oğlu - kapitan (ölümündən sonra)
Babayev Nihad Akif oğlu - kapitan (ölümündən sonra)
Bağırlı Qəzənfər Kərim oğlu - kapitan
Bədəlov Nicad Mehman oğlu - kapitan
Əliyev Fərid Vaqif oğlu - kapitan
Həsənov Ceyhun Aydın oğlu - kapitan (ölümündən sonra)
Hudulov Ramazan İzzət oğlu - kapitan
Qasımlı Rəşad Məzahir oğlu - kapitan
Mahmudov Cavid Hilal oğlu - kapitan (ölümündən sonra)
Musibov Veysəl Yadullayeviç - kapitan (ölümündən sonra)
Noçuyev Surxay Əbdül oğlu - kapitan (ölümündən sonra)
Səmədov İsmayıl Məhəmməd oğlu - kapitan (ölümündən sonra)
Şıxnəbiyev Renat Güləmməd oğlu - kapitan
Ağayev Qəzənfər Mahmud oğlu - baş leytenant
Balacayev İzzət Zakir oğlu - baş leytenant
Behbudov Cavid Ədalət oğlu - baş leytenant
Bədəlov Valeh Vahid oğlu - baş leytenant (ölümündən sonra)
Hümbətov Azad Arif oğlu - baş leytenant (ölümündən sonra)
İbrahimli Adil Asəm oğlu - baş leytenant (ölümündən sonra)
Allahyarov Şahin Hüseynbala oğlu - baş gizir (ölümündən sonra)
Cəbrayılov Sübhan Rahim oğlu - baş gizir (ölümündən sonra)
Hüseynov Yaşar Əhəd oğlu - baş gizir
İsmayılov Camal Vidadi oğlu - baş gizir (ölümündən sonra)
Niftəliyev Mehrab Söhrab oğlu - baş gizir (ölümündən sonra)
Yusifli Azər Nazim oğlu - baş gizir (ölümündən sonra)
Əsgərli İntiqam Bayram oğlu - gizir (ölümündən sonra)
Vəliyev Elyar Arif oğlu - gizir (ölümündən sonra)
Cabbarov Orxan Rövşən oğlu - kiçik gizir (ölümündən sonra)
Əhmədov Yaşar Mirağa oğlu - kiçik gizir
Hüseynov Əli Rəşid oğlu - kiçik gizir
İbrahimli Nail Nəriman oğlu - kiçik gizir (ölümündən sonra)
Novruzov Amin Tacəddin oğlu - kiçik gizir (ölümündən sonra)
Zalov Fəqan Amil oğlu - kiçik miçman (ölümündən sonra)
Abdullazadə Azər Rizvan oğlu - əsgər
Əflətov Murad İlyas oğlu - əsgər
Yaqubov Vüsal Elşən oğlu - əsgər.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 9 dekabr 2020-ci il.**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

***Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraqqərara alıram:***

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"Zəfər" ordeni ilə**

Həsənov Zakir Əsgər oğlu - general-polkovnik
Eyvazov Vilayət Süleyman oğlu - general-polkovnik
Quliyev Elçin İsağa oğlu - general-polkovnik
Nağıyev Əli Nağı oğlu - general-polkovnik
Sultanov Orxan Sedyar oğlu - general-polkovnik
Həsənov Ayaz Binyat oğlu - general-leytenant
Tahirov Ramiz Firudin oğlu - general-leytenant
Vəliyev Kərim Tofiq oğlu - general-leytenant
Kərimov Anar Təvəkkül oğlu - general-mayor
Məhərrəmov Aqşin Ramiz oğlu - general-mayor
Sultanov Ağamir Əzizxan oğlu - general-mayor
Tağıyev Rəsul Afiq oğlu - general-mayor
Dadaşov Haxverdi Xudaverdi oğlu - polkovnik
Həmidov Şükür Nəriman oğlu - polkovnik (ölümündən sonra)
Qapaqov Elşən Rafiq oğlu - polkovnik
Quliyev Mətin Ramiz oğlu - polkovnik
Məmmədov Baxşəli Musa oğlu - polkovnik
Məmmədov Samir Adil oğlu - polkovnik
Mirzəyev Nəsib Tahir oğlu - polkovnik
Nağıyev Məhəmməd Biladon oğlu - polkovnik
Pirverdiyev Akif Səməndər oğlu - polkovnik
Samidli Babək Mətləb oğlu - polkovnik (ölümündən sonra)
Qasımov Azər Ələvsət oğlu - polkovnik-leytenant
Rizvanov Anar Tofiq oğlu - polkovnik-leytenant
Süleymanov Rəsul Təvəkkül oğlu - polkovnik-leytenant
Şıxalıyev Nəsimi Yarməmməd oğlu - polkovnik-leytenant
Hacıyev Pərvin Aleksandr oğlu - mayor
İbrahimov Sahib Bayram oğlu - mayor
Mustafayev Bəxtiyar Əli oğlu - mayor
Rəhimov Zaur Şirinbəy oğlu - mayor
Babayev Şamil Baloğlan oğlu - kapitan (ölümündən sonra)
Mahmudov Anar Zahid oğlu - kapitan
Tağıyev Cavid Aydın oğlu - kapitan

**"Qarabağ" ordeni ilə**

Məmmədov Şahin İsgəndər oğlu - general-leytenant
Nağıyev Əfqan Vəli oğlu - general-leytenant
Osmanov Nizam Ramazan oğlu - general-leytenant
Rəhimov Arzu Yusif oğlu - general-leytenant
Abdullayev Cavid Mirhəmzə oğlu - general-mayor
Bağırov Ramin Sabir oğlu - general-mayor
Bərxudarov Mayis Şükür oğlu - general-mayor
Eminov Məmməd Şəmil oğlu - general-mayor
Həsənov Hikmət Hüseyn oğlu - general-mayor
Kazımov Vasif Ramiz oğlu - general-mayor
Abdullayev Rafael Kamil oğlu - polkovnik
Cəfərov Ceyhun Sədulla oğlu - polkovnik
Ələvsədov Həsən Əli oğlu - polkovnik
Quliyev Xaliq Qulu oğlu - polkovnik
Məmmədov Teymur Davud oğlu - polkovnik
Məşədiyev Taleh Vəliyət oğlu - polkovnik
Musayev Telman Qurban oğlu - polkovnik
Namazov Eldəniz Firuddin oğlu - polkovnik
Omarov Barat Bayram oğlu - polkovnik
Orucəliyev Mayis Mirzəyar oğlu - polkovnik
Pənahov Elşad İslam oğlu - polkovnik
Rəhimov Rəşad Manaf oğlu - polkovnik
Rüstəmov Zaur Zeynalabdul oğlu - polkovnik
Rzayev Gülməmməd Tofiq oğlu - polkovnik
Seyfullayev Cəbi Güləhməd oğlu - polkovnik
Şıxiyev Həbib Vələddin oğlu - polkovnik
Abduləzizov Elnur Abduləziz oğlu - polkovnik-leytenant
Abdullayev Vüqar Arif oğlu - polkovnik-leytenant
Ağagülov Elşən Etibar oğlu - polkovnik-leytenant
Ağcayev Bayram İlyas oğlu - polkovnik-leytenant
Aslanov Rəşad Əmirbəy oğlu - polkovnik-leytenant
Bağırov Ceyhun Əkbər oğlu - polkovnik-leytenant
Bayramov Teyyub Nurəli oğlu - polkovnik-leytenant
Bədəlov Firuz Əhməd oğlu - polkovnik-leytenant
Əmirov Zamiq Məhəmməd oğlu - polkovnik-leytenant
Əsədli Aqil Əlirza oğlu - polkovnik-leytenant
Fərmanov Reyhun Arif oğlu - polkovnik-leytenant
Haqverdiyev Qulam Fikrət oğlu - polkovnik-leytenant
Həziyev Şəmşir Bəxtiyar oğlu - polkovnik-leytenant
Hüseynov Elxan Kərim oğlu - polkovnik-leytenant
İbrahimov Pərviz Bəhram oğlu - polkovnik-leytenant
İsmayılov Samir Əlmusa oğlu - polkovnik-leytenant
Qənbərov Mehman Nərman oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Quliyev Anar Eldar oğlu - polkovnik-leytenant
Quliyev Ümüdvar Əzizalı oğlu - polkovnik-leytenant
Qurbanov Səfər Qurban oğlu - polkovnik-leytenant
Məmmədov Ehtiram Eldar oğlu - polkovnik-leytenant
Məmmədov Elçin Ziyadxan oğlu - polkovnik-leytenant
Məmmədov Elmir Ağamalı oğlu - polkovnik-leytenant
Məmmədov Zaur Alxan oğlu - polkovnik-leytenant
Mustafayev Babək Salman oğlu - polkovnik-leytenant
Müslümov Dəyanət Nuru oğlu - polkovnik-leytenant
Rəfiyev Elçin Mirzəxan oğlu - polkovnik-leytenant
Rizvanov Həbib Səməd oğlu - polkovnik-leytenant
Rüstəmov Teyfur Çərkəz oğlu - polkovnik-leytenant
Rüstəmov Zaur Tahir oğlu - polkovnik-leytenant
Rzayev Orxan Nüsrət oğlu - polkovnik-leytenant
Salahov Vüqar Nizami oğlu - polkovnik-leytenant
Səlimov Şamxal Naid oğlu - polkovnik-leytenant
Şadmanov Nəsimi Yunis oğlu - polkovnik-leytenant
Şəfiyev Famil Mirsahib oğlu - polkovnik-leytenant
Şirvanov Mehman Mirəziz oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Tağıyev Samir Nəsrəddin oğlu - polkovnik-leytenant
Ağayev Rövşən Eldar oğlu - mayor
Axundov Emil Aqil oğlu - mayor
Atakişiyev Rəşad Nazim oğlu - mayor
Babayev Mahir Tahir oğlu - mayor
Balıev Hüseynağa Salman oğlu - mayor (ölümündən sonra)
Bilalov Amil Adil oğlu - mayor
Cəfərov Azad Asif oğlu - mayor
Daşdəmirov Nail Təmraz oğlu - mayor
Eminov Elimdar Həsən oğlu - mayor
Əliyev Kəramət İbrahim oğlu - mayor
Əliyev Pərviz Həmzə oğlu - mayor
Əliyev Ramin Rizvan oğlu - mayor
Əliyev Rəvan Musa oğlu - mayor
Fərəcov Cavid Yaşar oğlu - mayor
Fərəcov Əliheydər İsrafil oğlu - mayor
Hacıyev Ramid Nəriman oğlu - mayor (ölümündən sonra)
Həsənov Əlişan Şakir oğlu - mayor
Həsənov Hümmət Fərrux oğlu - mayor
Hüseynov Rəhim Qədir oğlu - mayor (ölümündən sonra)
Kərimov Taleh Adil oğlu - mayor (ölümündən sonra)
Qənbərov İdris Dərya oğlu - mayor
Qəribov Sahib Xanlar oğlu - mayor
Qlinçev Anar Mirzəli oğlu - mayor
Mehdiyev Rüstəm Süleyman oğlu - mayor
Məlikov Vüqar Telman oğlu - mayor
Məmmədov Elşən Tağı oğlu - mayor
Mikayılov Azər Əmrah oğlu - mayor (ölümündən sonra)
Muxtarov Ələsgər Faiq oğlu - mayor
Paşayev Elsevər Vaqif oğlu - mayor (ölümündən sonra)
Səfərov Elgün Elmar oğlu - mayor
Süleymanlı Elçin Səlimxan oğlu - mayor
Şükürov Mahmud Sabir oğlu - mayor
Zeynalov Rauf Çingiz oğlu - mayor
Ağayev Şamxal Elşad oğlu - kapitan
Aslanov Elmin Məhərrəm oğlu - kapitan
Babayev Xaliq Əli oğlu - kapitan
Baxşəliyev Nizami Füzuli oğlu - kapitan
Gülüyev Zaur Rusxət oğlu - kapitan
Hacımuradov Səbrulla Hacımurad oğlu - kapitan
Həsənov Vüsal Oktay oğlu - kapitan
Hüseynov Elşən Əli oğlu - kapitan
Hüseynov Ülvü Möhsün oğlu - kapitan (ölümündən sonra)
Hüseynzadə Həmidağa Bağı oğlu - kapitan (ölümündən sonra)
İbadov Tahir Allahverdi oğlu - kapitan
İbrahimov Abdal Rafiq oğlu - kapitan
Qurbanov Elman Xanlar oğlu - kapitan
Məmmədov Ceyhun İslam oğlu - kapitan
Məmmədov Əsgər Zaman oğlu - kapitan
Məmmədov Nurlan Qabil oğlu - kapitan
Rəşidli Tamerlan Elçin oğlu - kapitan
Rüstəmzadə Qalib Firdovsi oğlu - kapitan
Rzabəyli Eltürk Əli oğlu - kapitan
Şikarov Nəcəf Şikar oğlu - kapitan (ölümündən sonra)
Şirinov Kamil Əliş oğlu - kapitan (ölümündən sonra)
Tağıyev Elçin Ağaqulu oğlu - kapitan (ölümündən sonra)
Vəliyev Rəşad Elşən oğlu - kapitan
Həşimov Fərrux Mirzəmməd oğlu - kapitan-leytenant (ölümündən sonra)
Abbasbəyli Həmid Cavanşir oğlu - baş leytenant (ölümündən sonra)
Abbaslı Arif Firuz oğlu - baş leytenant (ölümündən sonra)
Abbaslı Cəlal Cəlil oğlu - baş leytenant
Abbaslı Cəsarət Ədalət oğlu - baş leytenant
Abbasov Eldar Adil oğlu - baş leytenant
Abdullayev İbrahim Habil oğlu - baş leytenant (ölümündən sonra)
Abdullayev Ramazan Səfəralı oğlu - baş leytenant
Ağayev Süleyman Əhəd oğlu - baş leytenant
Aslanov Ülvü Tahir oğlu - baş leytenant
Əhmədzadə Natiq Nadir oğlu - baş leytenant
Ələkbərov Əlisahib Selman oğlu - baş leytenant (ölümündən sonra)
Əliyev Faiq Fəyyaz oğlu - baş leytenant
Əsgərzadə Bəkir Zakir oğlu - baş leytenant
Feyzullayev Polad Taryel oğlu - baş leytenant
Həsənov Vüsal Vüqar oğlu - baş leytenant
Hüseynov Nəbi Hacıbala oğlu - baş leytenant (ölümündən sonra)
Kazımov Kamran Qurbanəli oğlu - baş leytenant (ölümündən sonra)
Quliyev Tural Adil oğlu - baş leytenant
Qüdrətli Elçin Yaşar oğlu - baş leytenant
Lətifov Lətif Nazim oğlu - baş leytenant
Mustafayev Rauf Əzizağa oğlu - baş leytenant
Nəcəfov Cəmil Nəcəf oğlu - baş leytenant (ölümündən sonra)
Rzazadə Həsən Vüqar oğlu - baş leytenant (ölümündən sonra)
Salmanov Həmzə Telman oğlu - baş leytenant
Zeynalov Elnur Elsevər oğlu - baş leytenant (ölümündən sonra)
Bayramov Emil Mürsəl oğlu - leytenant
Bədəlov Fərəc Simran oğlu - leytenant
Eyvazov Elvin Pərviz oğlu - leytenant
Əsədov Emil Balaqardaş oğlu - leytenant (ölümündən sonra)
Hüseynov Qarakişi Arif oğlu - leytenant
Qaraşov Məhəmməd İlham oğlu - leytenant
Qədirov Məhəmməd Valeh oğlu - leytenant
Mehdiyev Rəşad Faxrəddin oğlu - leytenant
Məmmədov Əhməd Qüdrət oğlu - leytenant
Mövlamov Sabir Rasim oğlu - leytenant
Rəsulov Samir Elxan oğlu - leytenant
Səmirov Baloğlan Nəriman oğlu - leytenant
Şirinov Pünhan Niyaz oğlu - leytenant
Cabbarov Yusif Yunsur oğlu - baş gizir
Cavadov Natiq Şahin oğlu - baş gizir
Fərəcov Famil Yavər oğlu - baş gizir
Yusifov Mehman Musa oğlu - baş gizir (ölümündən sonra)
Mehdizadə Mərdan Əhməd oğlu - baş miçman (ölümündən sonra)
Budaqov Rufiz Şirzad oğlu - gizir (ölümündən sonra)
Cavadlı Nemət Cavid oğlu - gizir (ölümündən sonra)
Ələsgərli Zaur Mübariz oğlu - gizir (ölümündən sonra)
Əliyev Tural Səfər oğlu - gizir
Əmənov Məhəmməd İltizam oğlu - gizir (ölümündən sonra)
Əsgərov Asəf İlqar oğlu - gizir (ölümündən sonra)
Həsənov Mustafa Elşad oğlu - gizir
Hüseynov Azər Fəxrəddin oğlu - gizir
İbrahimov Əlmuxtar Gülağa oğlu - gizir
Qarayev Əfsər Hafis oğlu - gizir
Qasımov Nuran Sabir oğlu - gizir
Quliyev Nəbi Tələt oğlu - gizir
Quliyev Şəhriyar Nəsib oğlu - gizir (ölümündən sonra)
Mirzəyev Zəka Kamal oğlu - gizir
Nağıyev Anar Sahib oğlu - gizir (ölümündən sonra)
Rəşidov Tural Fazil oğlu - gizir (ölümündən sonra)
Sadıqlı İbrahim Şahin oğlu - gizir (ölümündən sonra)
Zeynalov Xalid İltifat oğlu - gizir
Məmmədov Vüsal Qüdrət oğlu - miçman (ölümündən sonra)
Nəcəfov Fuad Taleh oğlu - miçman (ölümündən sonra)
Rəcəbov Ruslan Rəcəb oğlu - miçman (ölümündən sonra)
Səfərov Elvin Ramiz oğlu - miçman (ölümündən sonra)
Abdullayev Elcan Elçin oğlu - kiçik gizir
Cavadov Yelmar Elgiz oğlu - kiçik gizir
Dəmirov Siyahim Əlizamin oğlu - kiçik gizir (ölümündən sonra)
Əzizli Əziz Sabir oğlu - kiçik gizir
Xanzadə Elnur Yusif oğlu - kiçik gizir
Qardaşxanov İbrahim Səmid oğlu - kiçik gizir
Qasımov Mirağa Hafiz oğlu - kiçik gizir (ölümündən sonra)
Quliyev Pərviz Aydəmir oğlu - kiçik gizir
Quluzadə Orxan Elxan oğlu - kiçik gizir (ölümündən sonra)
Mənəfov Şahmar Vidadi oğlu - kiçik gizir (ölümündən sonra)
Mikayılov Nazim Namik oğlu - kiçik gizir
Musayev Ramil Aydın oğlu - kiçik gizir (ölümündən sonra)
Şıxəliyev Mehti Yalçın oğlu - kiçik gizir (ölümündən sonra)
Abdullayev Tural Şakir oğlu - baş çavuş (ölümündən sonra)
Allahyarov Vüsal Şakir oğlu - baş çavuş (ölümündən sonra)
Hüseynli Ələddin Zahid oğlu - çavuş
Cabbarov Elnur Şahmurad oğlu - əsgər (ölümündən sonra)
Məhərrəmov Əkbər Səyyaf oğlu - əsgər
Mənaflı Dursun Marif oğlu - əsgər.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

# Azərbaycanın Qələbə paradı: Cənubi Qafqazda sülhün təminatçılarının törəni











***Azərbaycanın milli dövlətçilik tarixində ilk dəfə belə parad keçiriləcək. Odur ki, bu parad siyasi, mənəvi, hərbi, suverenlik və başqa sahələr üzrə yükünə və mahiyyətinə görə digərlərinə bənzəməyəcək.***

Parad, marş və ya rejə - bir küçə və ya yol boyunca, çox zaman kostyumlu birlikdə bir qrup insanların təşkil olunmuş izdihamıdır. Paradların çoxsaylı səbəbləri var. Ancaq bu tədbir adətən şadlıq üçün keçirilir.

Dekabrın 10-da da Azərbaycanda şadlıq, Qələbə paradı keçiriləcək. Bu tədbir Ermənistanın məğlubiyyəti ilə nəticələnən 44 günlük döyüşlərdə həlak olan 2783 şəhidin (3 polkovnik, 23 polkovnik-leytenant, 49 mayor,54 kapitan,103 baş-leytenant,147 leytenant, 5 kiçik-leytenant, 267 gizir, 696 MAHHXHQ - MAXE,1241 əsgər, 7 miçman), 100-dən çox itkin düşən hərbi qulluqçunun, yüzlərlə qazinin, habelə bir əsrdən çox davam edən erməni fitnəsinin qurbanlarının, Qarabağın erməni işğalçılarından və himayədarlarından təmizlənməsi uğrunda döyüşmüş, şəhid olmuş, yaralanmış Azərbaycan oğulları və qızlarının, hərbçilərinin, eləcə də Azərbaycanın müstəqilliyi, onun bərpası uğrunda mübarizə aparmış, milli dövlətin qurulmasında rolu olmuş azərbaycanlıların yad edilməsi, xatırlanması bayramıdır. Bu, Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda mübarizədə şəhid olmuşların, Xocalı soyqırımı, 20 Yanvar şəhidlərinin, 1920-ci ildə Azərbaycanın sovet Rusiyası tərəfindən işğal edilməsindən sonra Cümhuriyyət dövründə yaradılan Milli Ordunun bolşeviklər tərəfindən güllələnən 15 generalının, o cümlədən 1988-ci ildə Qarabağda ilk iki şəhid - Əli Hacıyev və Bəxtiyar Quliyevin qanının alındığı günün bayram edilməsidir.

Cənubi Qafqaza yerləşdiriləndən ermənilər Azərbaycana və onun yerli əhalisinə qarşı müxtəlif vasitələrlə düşmənçilik edir. 20-ci əsrin əvvəlində onlar bu düşmənçiliyi açıq müstəvidə sürdürdülər. Cümhuriyyət elan edildikdən sonra onun gördüyü ilk tədbirlərdən biri erməni təcavüzünün qarşısını almaq olub. Çünki 1918-ci ilin martında ermənilər Fransa, Rusiya və başqa havadarlarının yardımı ilə Cənubi və Şimali Azərbaycan əhalisinə qarşı soyqırımı törətmişdi. Yeni yaranan Cümhuriyyətin qurucuları həm milli dövləti təşkil edir, həm də onun ordusunun formalaşması ilə məşğul olur, Qarabağda erməni silahlılarına qarşı mübarizə aparırdı.

1988-ci ildə azərbaycanlılar Ermənistanda və Azərbaycanda erməni hücumlarına məruz qaldı. Minlərlə azərbaycanlı Ermənistandakı dədə-baba yurdlarından didərgin salındı. Sonrakı illərdə torpaqları erməni silahlıları və onları himayə edən sovet hərbçilərindən könüllü dəstələr qorumağa başladı. 1991-ci ildə dövlət müstəqilliyi bərpa edildikdən sonra ordu quruculuğu başladı. Azərbaycan Ordusu yarandığı gündən döyüşlərdə formalaşıb.

Azərbaycanda ilk hərbi parad daşnaklar, erməni-bolşevik diktaturası məğlub edildikdən sonra 1919-cu il mayın 28-də Bakıda indiki Muzey Mərkəzinin yerləşdiyi ərazidə keçirilib. 1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Ordusunun yaradılması haqqında qərar qəbul edildi. Müstəqillik bərpa edildikdən sonra ilk hərbi parad 1992-ci il oktyabrın 9-da baş tutub. Onda hərbi paraddan keçənlər Qarabağa yollanırdı. Ulu öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli qərarına əsasən, iyunun 26-sı Silahlı Qüvvələr Günü elan olundu. 2008-ci il iyunun 26-da Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ikinci hərbi parad keçirildi. 2011-ci il iyunun 26-da isə Silahlı Qüvvələr Günü və müstəqilliyin bərpasının 20 illiyi münasibətilə müasir Azərbaycan Ordusunun növbəti hərbi paradı təşkil olundu. Dördüncü hərbi parad 2013-cü ildə Silahlı Qüvvələr Gününün yaranmasının 95 illiyinə həsr edilmişdi. Beşinci parad Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə keçirildi.

Dekabrın 10-da keçiriləcək parad işğalçının Azərbaycan torpaqlarından qovulduğu, ordusunun darmadağın edildiyi günə həsr olunur. Təntənəli mərasimdə silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları, eləcə də hərbi gəmi və katerlər nümayiş olunacaq. Paradda düşməndən qənimət kimi götürülən hərbi texnika, təslim olmuş hərbi hissənin bayrağı da göstəriləcək. Müstəqillik illərində həmişə Azərbaycanı müdafiə edən Türkiyə 44 günlük döyüşlərdə də öz qardaşlıq və müttəfiqlik vəzifəsini çox böyük sayğı ilə yerinə yetirib. Qardaş Türkiyə, həmçinin ATƏT-in Minsk qrupunun üzvü olaraq münaqişənin həllinə töhfəsini verməkdədir. Dekabrın 10-da keçiriləcək paraddan Türkiyə hərbçiləri də keçəcək. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da paradda iştirak edəcək. Qeyd edək ki, bundan əvvəlki paradlarda da Türkiyə hərbçiləri iştirak ediblər. Xatırladaq ki, 2001-ci il avqustun 21-də Türkiyə Hərbi Hava Qüvvələrinin "Türk Yıldızları" akrotimi (akrobatik qrupu) Bakı səmasında uçuş edib. "Türk Yıldızları" akrotiminin Bakı uçuşları eyni zamanda bir milyondan artıq insanın izlənməsi ilə dünya rekordu hesab edilir. Bu, onların Azərbaycandakı ilk çıxışı idi. Azərbaycan Silah Qüvvələrinin yaranmasının 100 illiyi münasibətilə keçirilən parada da onlar qatılmışdı.

Azərbaycanı bu haqlı mübarizəsində dəstəkləmiş başqa dövlətlərin başçılarının, rəsmilərinin də Qələbə paradına qatılması arzuolunan sayılır. Ancaq belə ehtimal etmək olar ki, koronavirus pandemiyası onların iştirakını əngəlləyib. Azərbaycan vətəndaşları tarixdən daha çox 1945-ci il iyunun 24-də Böyük Vətən Müharibəsində SSRİ-nin Almaniya üzərində qələbəsi şərəfinə Moskvada keçirilən hərbi paradı xatırlayırlar. Bu parad 122 dəqiqə davam etməklə güclü yağış altında keçirilib. Bu qələbə tədbirində 24 marşal, 249 general, 2 536 başqa zabit rütbəlilər, 31 116 serjant və əsgər iştirak edib. Həmin gün axşam saat 23:00-da 100 aerostatdan 20 min raket yaylımla buraxılıb. Bundan sonra Azərbaycan Vətən müharibəsindəki Qələbəsini qürur və fəxarət hissi ilə qeyd edəcək.

Dekabrın 10-da keçiriləcək parad isə başqa hadisədir. Bu, işğalçı və havadarlarının Azərbaycan torpaqlarından qovulmasıdır. Bu, Azərbaycanın qardaşı və dostlarının, Türkiyə, Pakistan, Ukrayna, İsrail, Macarıstanın və başqalarının sınaqdan üzüağ çıxdıqları günün bayramıdır. Bu parad müstəqilliyin möhkəmlənməsinin göstəricisidir. Bu parad dost üçün bayram, düşmən üçün xəbərdarlıqdır. Azərbaycan bununla Cənubi Qafqazın təhlükəsizliyinin təminatçısı rolunda çıxış etdiyini sübuta yetirir. Bu parad əməkdaşlığın bütün münaqişələrdən üstün olduğunu, sülhün, barışın vacibliyini təsdiqləyir. Bu, Azərbaycanın 120 illik mübarizədə Qələbəsinin paradıdır.

***Sədrəddin İsmayılov***

# Almaniyanın “ZDF” kanalında işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarından reportaj yayımlanıb






*Almaniyanın “ZDF” telekanalında Azərbaycanın işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarından reportaj yayımlanıb. Kanalın Qarabağ bölgəsinə ezam olunmuş müxbiri Yörq Braze Azərbaycanın 1990-cı illərdə itirdiyi əraziləri bu yaxınlarda geri qaytardığını qeyd edir.*













Ağdam və Füzuli rayonlarında yerli sakinlərlə söhbət edən müxbir bildirir ki, getdikcə daha çox azərbaycanlı bu regiona qayıdır. Həmin sakinlərdən biri, hələ Birinci Qarabağ müharibəsində iştirak etmiş Hamlet İbrahimov ermənilərin bu ərazilərdə törətdiyi vəhşiliklərdən və Vətən müharibəsinin gedişindən bəhs edir. “Bu dəfə biz qələbə qazana bildik”, - deyən Hamlet qənimət götürülmüş iki erməni tankını fəxrlə göstərir. İyirmi səkkiz il bundan əvvəl Qarabağda ermənilərə qarşı döyüşən və həmin müharibəni uğursuzluqla başa vuran Hamletin indiki məmnuniyyəti göz qabağındadır. O deyir: “Baxın, mərmilər də içəridədir, biz tankları bütün sursatı ilə birgə ələ keçirmişik. Ermənilər nələri var idisə, atıb qaçıblar”.

Reportajda Ağdam şəhərinin dağıntıları da göstərilir. Jurnalist qeyd edir ki, razılaşmaya əsasən Azərbaycanın döyüşsüz nəzarətə götürdüyü üç rayondan biri olan Ağdamın şəhər mərkəzi “ruhlar şəhəri” təəssüratını yaradır. Bura 1993-cü ildə Ermənistan tərəfindən işğal edilmiş, yerli əhalisi tərk etdikdən sonra talan olunmuş və indiyədək kimsənin yaşamadığı bir ərazidir. Bu şəhəri, həmçinin “Qafqazın Xirosiması” adlandırırlar.

Reportajda vurğulanır ki, 27 ildən sonra geri qayıdan şəhər sakini Məryəm İsmayılova da qürurludur. O, məscidin minbərindən öz yaşadığı məhəlləsini göstərir və evlərinin tamamilə dağıdıldığını söyləyir. Bildirir ki, şəhərdə yeganə salamat qalan tikili məsciddir. M.İsmayılova göz yaşları içində deyir ki, vaxtilə Ağdam çox gözəl şəhər olub, lakin indi həmin gözəllikdən əsər-əlamət qalmayıb. O qeyd edir ki, ermənilər şəhərə hücum edəndə evlərindən heç nə götürə bilməyib, bütün əşyalarını orada qoyaraq canlarını xilas etməyə çalışıblar. Qardaşı və həyat yoldaşı həmin vaxt yaralanaraq itkin düşüblər, onlardan indiyədək heç bir xəbər yoxdur. Onlar minlərlə itkin düşəndən yalnız ikisidir: “O vaxt bizi niyə öldürürdülər, mənim həyat yoldaşımın günahı nə idi? Oğlum mənə ermənilərin əsirləri qətlə yetirdikləri videoları göstərir. Haradan bilim, bəlkə mənim də həyat yoldaşımı o cür işgəncələrə məruz qoyub və qətlə yetiriblər?”.

Reportajda deyilir ki, 1990-cı illərə aid digər bir “ruhlar şəhəri” olan Füzulidə Hamlet dağıdılmış məscidin xarabalığı arasında gəzişir. O, alman jurnalistə vaxtilə Ağdam məscidi böyüklükdə olan Füzuli məscidinin yerini və həmin məsciddən qalan minarənin qalığını göstərir: “Bu, məscidin minarəsi də Ağdam məscidinin minarəsi kimi hündür olub. Lakin ermənilər onu məhv ediblər. Füzuli məscidi böyük olub, lakin ona qarşı edilənlərin nəticəsi budur, daşdaş üstündə qalmayıb”.

Hamlet onu da bildirdi ki, Azərbaycan Prezidentinin dediyi kimi, ermənilər bizimlə bizim ölkəmizdə bizim dövlətin vətəndaşı kimi bizim bayrağımızın altında və bizim pasportla yaşaya bilərlər. Sonda müxbir hələ müharibənin acısının təzə olduğunu və ətrafda dağıntıların çox olduğunu qeyd edir.

# Prezidentə yazırlar: Sizin sayənizdə biz təkcə döyüş meydanında deyil, informasiya müharibəsində də qalib gəldik



***Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyənin vətəndaşlarından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar gəlməkdə davam edir. Onlar Vətən müharibəsində qazandığımız tarixi Zəfərə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirirlər.***

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.

ABŞ-ın Hyuston şəhərindən Samir Novruzov yazır: “Hörmətli və əziz Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev, Laçının azad olunması münasibətilə Sizi təbrik edirəm. Siz Azərbaycan xalqını zirvələrə ucaltdınız. Müharibə dövründə biz hamımız bir olduq və sonda ölkəmizin ərazi bütövlüyünü təmin etdik. Siz Azərbaycan tarixinə qızıl hərflərlə yazılan yeni şanlı və qürurlu səhifə yazdınız, “Qarabağ Azərbaycandır!” şüarını həyata keçirdiniz. Cənab Prezident, biz Sizinlə fəxr edirik. Yaşasın Azərbaycan xalqı, yaşasın Azərbaycan dövləti!”.

Türkiyənin İstanbul şəhərindən İsmail Çağlıyan: “Müzəffər Ali Baş Komandan, cənab Prezident, bütün türk xalqlarına yaşatdığınız bu mübarək Zəfərinizə görə Sizi və qardaş Azərbaycan xalqını təbrik edirik. Allah-Təala Sizi qorusun! Yaşasın əbədi Azərbaycan! Qəlbimiz daim Sizlərlə döyünür. Hörmət və minnətdarlığımla əllərinizdən öpürəm”.

Ağsu rayonundan Elçin Zeynalov: “Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, Sizi Laçın rayonunun bütün sakinləri, o cümlədən ailəmizin üzvləri adından şanlı Ordumuzun qazandığı qələbələr, doğma torpaqların yağı düşməndən azad edilməsi münasibətilə səmimi qəlbdən təbrik edirəm. Siz eyni vaxtda iki düşmənlə - gözəgörünməz koronavirus pandemiyası və gözəgörünən ermənilərlə mübarizə apardınız. Əminəm ki, erməni işğalçıları üzərində qazandığınız parlaq qələbəni pandemiya ilə mübarizədə də qazanacaqsınız. Siz öz şücaətinizlə, qətiyyətinizlə, iradənizlə, uzaqgörənliyinizlə və qeyrətinizlə bizim 28 illik həsrətimizə son qoydunuz və Azərbaycan xalqının Milli Qəhrəmanı oldunuz. Döyüş meydanında qazandığınız bu fəxri ad hər bir azərbaycanlının ürəyindən xəbər verir. Siz Azərbaycan xalqının qüdrətini təkcə Ermənistana deyil, bütün dünyaya göstərdiniz. Sizin sayənizdə biz təkcə döyüş meydanında deyil, informasiya müharibəsində də qalib gəldik. Müharibə getdiyi bir vaxtda dünyanın aparıcı kanallarına mətin, əsaslı cavablarınızla haqq səsimizi çatdırdınız. Azərbaycan xalqı bütün varlığı ilə Sizə inanır. Siz bu xalqın xilaskarısınız. Allah Sizi qorusun! Sizin əsl qalib Sərkərdə olmağınızı tək biz yox, bütün dünya gördü. Siz öz adınızı tarix səhifələrinə qızıl hərflərlə yazdınız. Siz mənim 80 yaşlı atamın, 70 yaşlı anamın həsrətinə son qoydunuz. İnanıram ki, rayonumuzun bütün sakinləri mənim kimi doğma Laçınımızda Sizin qızıldan büstünüzü görmək istəyirlər. Ömrümüz boyu Sizə minnətdarıq. Sizin şərəfinizə nə qədər xoş sözlər deyilsə də, nə qədər kitablar yazılsa da, yenə azdır. Bir daha Sizi səmimi qəlbdən təbrik edir, gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq. Dünya durduqca durasınız! Allah yar və yardımçınız olsun! Amin!”.

Şəmkir rayonundan Əziz Aslanovun məktubunda deyilir: “Cənab Prezident, Müzəffər Ali Baş Komandan, biz Aslanovlar ailəsi olaraq Sizi daim dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik. Bizim Sizi dəstəkləməyimizin səbəbi xalqımızın rifahının yaxşılaşdırılması üçün yürütdüyünüz ardıcıl siyasətdir. Bunu yalnız Vətən xainləri görməyə bilərlər. Haqqa, ədalətə, beynəlxalq hüquqa əsaslanan uğurlu siyasətiniz, qətiyyətli iradəniz sayəsində və Müzəffər Ordumuzun qəhrəmanlığı ilə torpaqlarımızın işğaldan azad edilməsi, eyni zamanda, qızıl hərflərlə yazılan bu parlaq hərbi və siyasi Qələbə münasibətilə Sizi Aslanovlar ailəsi adından ürəkdən təbrik edir, dərin minnətdarlığımızı bildiririk. Azərbaycan xalqı Sizinlə qürur duyur. Fəxr edirik ki, Sizin kimi əvəzolunmaz bir liderimiz var. Allah Sizi və yenilməz Ordumuzu qorusun! Sizə sonsuz təşəkkürlərimizi bildiririk. Bu qürurverici və sevinc hisslərini bizlərə yaşatdığınız üçün Sizə minnətdarıq. Torpaqlarımızı özümüzə qaytardınız. Xalqımızın həsrətinə son qoydunuz. Siz bir daha bütün dünyaya sübut etdiniz ki, bu torpaqlar Azərbaycanındır. Dünya liderlərinin Sizdən öyrənəcəyi çox şey var. Azərbaycanın gələcəyi isə düşünürəm ki, çox parlaqdır. Çünki bu ölkənin Sizin kimi əvəzolunmaz Prezidenti, Ali Baş Komandanı var”.

Samux rayonundan Natiq Allahverdiyev: “Əziz və hörmətli Prezidentim, mən bir sadə kəndli kimi möhtəşəm Qarabağ Qələbəsi münasibətilə Sizi üzbəüz təbrik etmək, bir ağsaqqal kimi Sizi bağrıma basmaq istərdim. Çünki Siz uzun illər ərzində millətin qəlbində olan nisgilə son qoydunuz, xalqımızı torpaqlarımız üçün ayağa qaldırdınız, xalqımızın qürur hissini bərpa etdiniz, azərbaycançılığın nə demək olduğunu balalarımıza əyani göstərdiniz, Qarabağımızı Azərbaycanımıza qaytardınız. Sizə ömrümün sonuna kimi minnətdaram, cənab Ali Baş Komandanım. Uca Allahdan arzu edirəm ki, Sizə uzun ömür, cansağlığı versin. Allah-Təala Sizi çəkdiyiniz əziyyətlərin bəhrəsi olaraq dövlətimizi arzuladığınız bir dövlət kimi görmək xoşbəxtliyi qismət eləsin. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, mən fəxr edirəm ki, azərbaycanlıyam, mən fəxr edirəm ki, Sizin kimi Prezidenti olan ölkənin vətəndaşıyam. Allah Sizi və xalqımızı qorusun!”.

Gəncə şəhər sakini Mürsəl Əliyevin məktubunda deyilir: “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, torpaqlarımızın erməni işğalçılarından təmizlənməsi uğrunda gedən Vətən müharibəsində qazandığımız Qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm, Sizi bağrıma basıram. Bütün xalqımız kimi Sizinlə fəxr edirəm, Ordumuzla qürur duyuram. Döyüşdə qazandığımız Qələbəyə görə dövlətimizə, Ordumuza, ən başlıcası isə Sizə, Ali Baş Komandanımıza minnətdarıq. Allah Azərbaycan xalqını, Azərbaycan əsgərini qorusun, hörmətli Prezidentimizin kölgəsini Azərbaycan xalqının başı üzərindən əskik etməsin. Cənab Prezident, bu yolda Sizinləyik, Sizi ürəkdən dəstəkləyir, Sizinlə fəxr edir, Sizi sevirik. Allah Sizi qorusun, eşq olsun Sizə. Siz dünyaya sübut etdiniz ki, Qarabağ Azərbaycandır! Siz bizim əbədi Prezidentimizsiniz. Mən arzu edirəm ki, Siz Azərbaycan xalqının Milli Qəhrəmanı adına layiq görüləsiniz, çünki Siz həqiqətən də bizim Milli Qəhrəmanımızsınız. Bir çox ölkələrin təsir və təzyiqlərinə baxmayaraq, həm hərb cəbhəsində, həm də informasiya cəbhəsində böyük nailiyyətlər qazandığınız bütün dünyaya məlumdur. Bütün xalqımız kimi mən də Sizin zəkanıza, Sizin hazırcavablığınıza heyranam. Bizi sevməyən jurnalistlərin dilini qurudanda Sizi bağrıma basmaq istəyirdim. Sizinlə fəxr edir, qürur duyuram. Bu gün bütün xalqımız da mənim kimi Sizinlə fəxr edir. Bütün xalqımızın arzusudur ki, Sizi Azərbaycanın Milli Qəhrəmanı kimi görsünlər. Biz bunu ürəkdən arzu edirik. Mənim ən böyük arzum budur ki, Qələbə münasibətilə keçiriləcək hərbi paradda mənim də iştirak etməyim üçün icazəm olsun. Azərbaycan torpaqlarının işğaldan azad olunması uğrunda gedən Vətən müharibəsində şəhid olmuş balalarımıza Allahdan rəhmət diləyir, onların ruhu qarşısında baş əyirik. Allah şəhidlərimizin valideynlərinə, bütün xalqımıza səbir versin. Müzəffər Ali Baş Komandan, mən Gəncə əhalisi adından, ailəmiz adından, yuxarıda göstərilənləri Sizə bildirməklə bu gün apardığınız dönməz siyasəti dəstəkləyir, hər zaman Sizin yanınızda olduğumuzu bildirir və Vətən yolunda, dövlətimiz uğrunda, torpaqlarımızın bütövlüyü uğrunda canımdan keçməyə hazır olduğumu, hər an döyüşə getməyə canla-başla hazır olduğumu bildirmək istəyirəm”.

Zərdab sakini Rəşid Mahmudov: “Müzəffər Ali Baş Komandan, Sizi və xalqımızı təbrik edirəm. Bu Qələbəmiz bütün dünyaya Azərbaycan Ordusunun gücünü göstərdi. Sizin sayənizdə bu xoş günləri biz yaşadıq. Bir gənc olaraq mən Sizinlə eyni bir əsrdə yaşadığım üçün, gözəl günlərin şahidi olduğum üçün çox sevinirəm. Cənab Prezident, mənim qardaşım da könüllü döyüşlərdə iştirak edib hazırda Qarabağ ərazisindədir. Cənab Prezident, Azərbaycan xalqı nə qədər mövcuddursa bizə başqa lider lazım deyil. Siz bizim əvəzolunmaz sərkərdəmizsiniz.

Uca Allah Sizi, ailənizi və xalqımızı qorusun. Daim Sizin arxanızdayıq, Sizinləyik. Dövlətimizi Sizə, Sizi isə Uca Allaha əmanət edirəm”.

Qusardan Tahirə Nurəhmədova dövlətimizin başçısına yazır: “Müzəffər Ali Baş Komandan, bu məktubu Qələbə müjdəli xoş xəbərlərdən ruhlanaraq yazıram. Düşmən Ağdam, Kəlbəcər və Laçın rayonlarını da tərk etməyə məcbur oldu. Sizin uzaqgörən siyasətinizin uğurlu nəticəsidir ki, işğalda olan torpaqlarımız itkisiz geri alındı. Bu münaqişənin siyasi, diplomatik həll yoludur və buna Sizin sayənizdə nail olduq. Cənab Prezident, mən şəhid anasıyam, oğlum oktyabr ayında Vətən müharibəsində şəhid olub. Ana üçün bala itkisi böyük dərddir. Amma təskinliyi onda tapıram ki, işğal altında olan torpaqlarımız azad olundu, şəhidlərimizin qanı yerdə qalmadı. Təki Vətən sağ olsun! Allah Sizləri qorusun! Müzəffər Ordumuza eşq olsun!”.

Qəbələdən Zahir Seyidov: “Hörmətli cənab Prezident, Sizi və bütün Azərbaycan xalqını bu tarixi Qələbə münasibətilə ürəkdən təbrik edirik. Sizə möhkəm cansağlığı, uzun ömür, gələcək yorulmaz fəaliyyətinizdə böyük uğurlar arzulayırıq. Siz, 27 ildən artıq sürən həsrətə 44 günlük Vətən müharibəsi ilə birdəfəlik son qoydunuz. Qarabağı, eləcə də ətraf rayon və şəhərlərimizi işğaldan azad etməklə tariximizin ən müqəddəs səhifəsini qızıl hərflərlə yazdınız. Biz Sizə güvəndik və inandıq, yenə də inanırıq və həmişə inanacağıq. Siz bütün dünyaya sübut etdiniz ki, Qarabağ Azərbaycandır! Allah Sizi, Ordumuzu və xalqımızı qorusun!”.







Sabirabad rayonundan Ramiz Nifbalayev: "Müzəffər Ali Baş Komandan, bizə yaşatdığınız möhtəşəm Qələbə sevincinə görə Sizə sonsuz minnətdarlığımı bildirirəm. Erməni işğalçıları ilə cəbhədə qəhrəman əsgərlərimiz, Ermənistan və ermənipərəst ölkələr qarşısında isə Siz vuruşdunuz. Qarabağın Azərbaycan olduğunu bütün dünyaya sübut etdiniz. Biz bütün Azərbaycan xalqı olaraq hazırda böyük bir tarixə şahidlik edirik. Sizin zəngin dünyagörüşünüz, uzaqgörən və müdrik siyasətiniz, dərin tarixi və diplomatik bilikləriniz ölkəmizin dünya arenasında layiqli təmsil olunmasında əsas rol oynadı. Bu qürurlu tarixə şahid olduğumuz üçün Sizə sonsuz təşəkkürlərimizi bildiririk. Sizə möhkəm cansağlığı, uzun ömür arzulayıram. Dualarımız hər zaman Sizinlədir".

İmişli rayonundan Tural Əhmədov: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, 2003-cü il oktyabrın 15-də Siz Azərbaycan Respublikasının Prezidenti seçilərkən hər bir gənc kimi mənim də sevincimin həddi-hüdudu yox idi. Aprel döyüşlərində məhz Sizin uzaqgörən siyasətinizin nəticəsində qalibiyyət əldə edərək, Lələtəpədə üçrəngli bayrağımızı dalğalandırmaqla sevinc üstünə sevinc bəxş etdiniz. Rəşadətli Ordumuzun şücaəti və Sizin uğurlu siyasətiniz nəticəsində doğma torpaqlarımızı bütünlüklə düşməndən azad etdiyiniz üçün, bizə bütöv Azərbaycanı bəxş etdiyiniz üçün təşəkkür edirik. Bu günləri bizə yaşatdığınız üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Siz hər zaman demisiniz ki, mən hər bir azərbaycanlının Prezidentiyəm və bunu sübut etmisiniz. Allah Sizi xalqımızın başının üstündən əskik etməsin! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Neftçaladan Eldar Əhmədov: "Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, mən bir Azərbaycan vətəndaşı kimi Qələbə qazandığımız üçün çox sevinirəm və Sizi ailəmiz adından, şəxsən öz adımdan ürəkdən təbrik edirəm. Sizin müdrik rəhbərliyiniz sayəsində ölkəmiz öz ərazi bütövlüyünü bərpa etdi. Dövlətimiz və xalqımız üçün etdiklərinizə görə Sizə çox minnətdarıq. Siz Azərbaycanın Milli Qəhrəmanı adına layiqsiniz. Əziz Prezidentimiz, əminik ki, Sizin rəhbərliyinizlə bütün çətinliklərin öhdəsindən uğurla gələcəyik. Allah Sizi qorusun".

İmişli sakini Novruz Hüseynov: "Hörmətli, cənab Prezident, Zati-aliləri, Müzəffər Ali Baş Komandan, müqəddəs müharibə olan Vətən müharibəsində Ordumuzun qazandığı möhtəşəm Qələbəyə görə, ən əsası, 30 ilə yaxın xain Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi münasibətilə Sizi səmimi qəlbdən təbrik edir, müstəqil və ərazi bütövlüyü bərpa edilmiş Azərbaycanın inkişafı naminə görəcəyiniz işlərdə Sizə uğurlar arzulayıram. Ulu Tanrı Sizi, ailənizi və Azərbaycan xalqını qorusun!".

Qax rayon sakini Nemət Məmmədov: "Salam olsun Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevə, Qarabağın tam azad olunması münasibətilə Sizi və Azərbaycan Xalqını, Azərbaycan Ordusunu ürəkdən təbrik edirəm. Allahdan Sizə və ailənizə uzun ömür, cansağlığı arzu edirəm. Siz bu möhtəşəm Qarabağ qələbəsi ilə Azərbaycan xalqını çox sevindirdiniz. Allah Sizi Azərbaycan xalqının başı üstündən əskik eləməsin. Mən bir vətəndaş olaraq Sizinlə qürur duyuram. Sizin yürütdyünüz siyasəti dəstəkləyirəm".

Bakı sakini Azər Sadıqov: "Allahımın xoş xasiyyətli və mərd bəndəsi, xalqımın Prezidenti, Ordumun Müzəffər Ali Baş Komandanı və qədim Şuşamın igid Fatehi möhtərəm İlham Əliyev, Azərbaycanda hər il Anım və Qələbə günlərinin qeyd olunması barədə imzaladığınız Sərəncamla sanki biz Qarabağ müharibəsi veteranlarına bir nəfəs vermiş oldunuz. Sevincimdən göz yaşlarımı gizlədə bilmədim və sevincimi Sizinlə paylaşmağı qərara aldım. Üç il bir tankçı zabit kimi səngər həyatını yaşadım. Öz-özümə deyirdim ki, görəsən Allah bizlərə Qələbə gününü qismət edəcəkmi?! Çox şükür Allaha. Allahın nəzəri üstünüzdən əskik olmasın! Amin!".

Lerik sakini Naib Quliyev: "Cənab İlham Əliyev, bu gün Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycan dövləti, cənab Prezident, Sizin qətiyyətli, yenilməz sərkərdə cəsarətiniz və diplomatik məharətiniz sayəsində tarixin şanlı günlərini yaşayır. Düşmən tapdağı altında olan torpaqlarımız Sizin rəhbərliyiniz və müzəffər Ordumuzun qüdrəti ilə azad edilmiş və ərazi bütövlüyümüz bərpa olunmuşdur. Sizin dəmirdən möhkəm yumruğunuz düşmənin başını əzdi. Cənab Prezident, Siz 44 gün ərzində ermənipərəst dövlətləri layiqincə dəf etdiniz. İnanmaq olmur ki, 27 il ermənilərin işğalında olan Qarabağımız 44 günə azad edildi. Siz bir daha bütün dünyaya sübut etdiniz ki, heç bir qüvvə Azərbaycanı haqq yolundan döndərə bilməz. Bu gün xalqımız böyük sevinc və qürur hissi keçirir. 74 yaşlı bir insan, 46 ilin müəllimi kimi ailəmizlə bərabər Sizi və xanımınızı ürəkdən təbrik edirik. Biz Sizinlə fəxr edirik, cənab Prezident. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Yaşasın Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyev! Eşq olsun rəşadətli, şanlı və məğlubedilməz Azərbaycan Ordusuna! Gözün aydın, Azərbaycan xalqı! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Füzuli sakini Fəxri Balakişizadə: "Cənab Prezident, mən Sizi ürəkdən təbrik edirəm. Yaxşı ki, varsınız, cənab Prezident. Həqiqətən Siz həm xarici qüvvələrlə müharibədə qalib gəldiniz, həm də Ali Baş Komandan kimi Ordumuzla, millətimizlə birlikdə düşmənin belini qırıb, məğlub etdiniz. Təbii ki, bunu Sizin rəhbərliyinizlə və Ordumuzun şücaəti ilə bacardıq. Mən Sizinlə fəxr edirəm, Allah Sizə uzun ömür, cansağlığı versin. Cənab Prezident, inanın ki, bizlər həmişə Sizin yanınızdayıq və Sizi ömürboyu Azərbaycanın Prezidenti görmək istəyirik. Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan! Biz birlikdə güclüyük! Allah şəhidlərimizə rəhmət etsin, yaralılarımıza şəfa versin. Qarabağ Azərbaycandır!".

Naftalan sakini Gülnar Quliyeva: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, əziz Sərkərdəmiz, doğma Qarabağımızı böyük zəfərlə bizə qaytardığınıza görə ailə üzvlərim və öz adımdan Sizə və çox hörmətli Mehriban xanım Əliyevaya dərin minnətdarlığımı bildirirəm. Çox xoşbəxtik ki, dünya diplomatiyasında sözünü deyən, hərbidə əsl sərkərdə, həyatda humanist insan, uzaqgörən Prezidentimiz var. Biz naftalanlılar ulu öndər Heydər Əliyevin layiqli davamçısı kimi hər zaman Sizinlə bir olmuşuq. Bundan sonra da bu yolla daim sədaqət və fədakarlıqla gedəcəyik. Sizin səhiyyə işçilərinə olan qayğınız məni bir tibb işçisi olaraq hər zaman daha əzmlə çalışmağa, əhalinin sağlamlığının keşiyində daha həvəslə durmağa ruhlandırır. Bu qayğıya və verdiyiniz dəyərə görə Sizə sonsuz təşəkkürümü bildirirəm. Uca Allah Sizə yar olsun!".

Zaqatala sakini Zahid Ramazanov: "Hörmətli cənab İlham Əliyev, mən sadə bir kənd sakiniyəm və Sizə öz səmimi təşəkkürümü bildirmək istəyirəm. Hörmətli İlham Əliyev, Siz bu gün sadəcə Prezident deyilsiniz, ondan da qat-qat yüksəkdəsiniz. Siz bütün Azərbaycan xalqını xoşbəxt edən, bütün xalqımızı qürurlandıran bir Sərkərdəsiniz. Mən yaxşı bilirəm ki, bütün insanlar belə düşünür, bu gün qazanılan Qələbə uzun illər görülmüş işlərin nəticəsidir. Bu işləri Siz görmüsünüz. Cəbhədə qazanılan Qələbədə əlbəttə ki, əsgərlərimizin əməyi və qorxmazlığı böyük rol oynayıb, bu, danılmazdır. Amma nə qədər qorxmaz və cəsarətli əsgərlər olsa da, onlara səhv rəhbərlik edilsə, onlar qalib gələ bilməzlər. Ona görə də hər şeydən əvvəl hesab edirəm ki, Sizin düzgün və hesablanmış siyasətiniz bizim Qələbəmiz üçün ən vacib amil idi. Bütün xalqımız kimi, mən də fəxr edirəm ki, biz qalib xalqıq və bu Qələbənin başında İlham Əliyev dayanır. Allah Sizi və Azərbaycanımızı qorusun!".

# Vüqar Rəhimzadə: Ermənistana dəstək verən dövlətlər işğalçı ilə eyni dəyərləri bölüşdüklərini nümayiş etdirirlər



***"44 günlük İkinci Qarabağ müharibəsinin Azərbaycanın hərbi- siyasi qələbəsi və Ermənistanın kapitulyasiyası ilə başa çatması son 30 ildə ədalət meyarının hansı səbəblərdən maraqların arxasında əriməsinə bir daha işıq salır. Bu baxımdan 44 günlük müharibə sözün əsl mənasında həqiqət anı oldu. Bu dövrdə kimin haqqın, kimin şərin, kimin dostun, kimin isə düşmənin yanında olduğu bir daha özünü qabarıq şəkildə büruzə verdi.***

30 ilə yaxın müddətdə Azərbaycanın ərazilərini özünün əsassız torpaq iddiası nəticəsində işğal altında, bir milyondan çox soydaşımızı qaçqın və məcburi köçkün vəziyyətində saxlayan Ermənistana "gözün üstə qaşın var" deyilməməsinin səbəbi bugünkü reallıqlardan bir daha aydın olur. Belə ki, 10 noyabr üçtərəfli Bəyanatı Avropanın bəzi ölkələrində olduğu kimi, erməni diasporu və lobbisinin təsiri altında olan Niderland parlamentində də anti-Azərbaycan, anti-Türkiyə, islamofob, ultra-sağçı və ultra-millətçi qüvvələrin hədəfinə çevrilib. Məsələyə ikili standartlarla yanaşma, erməni sevgisi dünya üçün qəbul olunan meyardısa, bu prinsiplərin zamana və məkana görə tətbiqi dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların mövqeyinə inamsızlıq yaratmırmı?"

Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, Fransa parlamentinin ardınca Niderland parlamentinin belə bir mövqe nümayiş etdirməsi həqiqətən də dünyanın hüquq problemini yaşamasını bir daha ortaya qoyur: "Müharibənin başa çatmasından sonrakı ilk günlərdə Niderland parlamentinin Nümayəndələr Palatasında Azərbaycan və Türkiyə əleyhinə bir sıra qətnamə təşəbbüsləri irəli sürülmüşdür. Türkiyə və Azərbaycana qarşı sanksiyaların tətbiq olunması, qondarma "Dağlıq Qarabağ respublikası"nın tanınması, uydurma "suriyalı terrorçular" məsələsinin araşdırılması və sair kimi cəfəng çağırışlar edən bu layihələrin müəllifləri ultra-sağçı, anti-Türkiyə və faşist ideologiyasının təbliğatçıları və ermənipərəst qüvvələrin əlaltılarıdır. Belə qərəzli addımlar bir daha həmin dairələrin Türkiyənin və Azərbaycanın getdikcə güclənən, sarsılmaz birliyindən narahatlıqlarını göstərir. Dağlıq Qarabağ münaqişəsinin tərəfləri Ermənistan və Azərbaycan olsa da, son sənədlərdə Tükiyənin adının daha çox yer alması diqqətdən kənarda qalmır."

"Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğal olunmasına, mülki əhalimizin qətlə yetirilməsinə, işğalçı dövlətin torpaqlarımızda etnik təmizləmə, ekoloji terror, qeyri-qanuni məskunlaşma və qanunsuz iqtisadi fəaliyyət aparmasına ötən 30 il ərzində susqun mövqe nümayiş etdirən bu dövlətlərin bugünkü yanaşmaları birmənalı qarşılana bilməz" söyləyən baş redaktor qeyd edib ki, ermənipərəst qüvvələrin əlaltılarının cəhdləri nəticəsində noyabrın 17-də Niderland parlamenti tərəfindən Azərbaycan və Türkiyə əleyhinə bir neçə tövsiyə xarakterli qətnamə qəbul olunub: "Reallıqla heç cür barışmaq istəməyən bu qüvvələr parlamentdə mütəmadi olaraq mövzunu gündəmə gətirir, hökumətə müxtəlif təxribat xarakterli suallar ünvanlayırlar. Niderland Hökuməti parlamentdəki təxribatçı təşəbbüsləri müəyyən mənada neytrallaşdırmağa və sənəd layihələrini balanslaşdırmağa çalışsa da belə cəhdlərin davamlı olması ölkələrimiz arasında münasibətlərə mənfi təsir göstərməyə bilməz. Dövlətimizin başçısı İlham Əliyev Niderlandın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Paulin Eizemanın etimadnaməsini qəbul edərkən də Niderland Parlamentinin bu təxribatçı qərarlarına kəskin münasibətini onun diqqətinə çatdıraraq, parlamentdəki müzakirələr zamanı Niderlandın Xarici İşlər naziri S.Blokun balanslaşdırılmış yanaşma ilə çıxış etməsini təqdir etsə də, ümumilikdə belə ədalətsiz qərarların ölkələrimiz arasında normal əlaqələrin qurulmasına kömək etməyəcəyini xüsusilə vurğulamışdır."

V.Rəhimzadə qeyd edib ki, atdığı addımların fərqinə varmadan daim xaricdəki ermənipərəst dairələrdən özünə diqqət və qayğını görən Ermənistanın baş naziri Nikol Paşinyanın 44 günlük müharibə dövründə xarici mətbuata müsahibələrində bir qayda olaraq beynəlxalq hüquqla bağlı sualların qarşısında çaşqın qalaraq, heç nədən çəkinmədən beynəlxalq hüququn mövcudluğuna şübhə ilə yanaşaraq gülümsəməsi dünyanın aparıcı dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlara mesaj idi: "Məhz bu təbəssümün, gülüşün arxasında nələrin dayandığı istər son 30 ildə, istərsə də 10 noyabr Bəyanatından sonra bəzi Avropa ölkələrinin tutduqları mövqedən bir daha aydın görünür. Hər zaman qeyd etdiyimiz kimi, Ermənistana dəstək verən dövlətlər belə addımları atmaqla həm öz maraqlarını reallaşdırmaqda işğalçı ölkədən bir vasitə kimi istifadə etdiklərini, həm də eyni dəyərlərə malik olduqlarını nümayiş etdirirlər. Bu gün Niderlandın timsalında bunu aydın şəkildə görmək mümkündür. Bircə faktı qeyd etmək kifayətdir ki, Srebrenitsa soyqırımı 90-cı illərin Balkan müharibələrinin ən acı səhifəsidir. 1995-ci ilin iyulunda Bosniya və Herseqovinanın Srebrenitsa şəhərində 8300-dən çox insanın soyqırımına məruz qalmasının məhz BMT-nin Niderland sülhməramlı kontingentinin fəaliyyətsizliyi və qorxaqlığı nəticəsində baş verməsi məlum tarixi faktdır."

Baş redaktor bildirib ki, özünü Avropanın aparıcı ölkəsi hesab edən bir dövlətin siyasətini ultra-sağçı ekstremist siyasətçi, Azadlıq Naminə Xalq Partiyasının rəhbəri Qert Vilders, o cümlədən Martin van Helvert, Joel Voordevind və Sven Koopmans kimi radikal elementlərin təbliğ etdikləri ideologiyanın müəyyən etməsi təəssüf doğurur: "Görəsən Niderland deputatları belə təxribatlara yol verərkən ölkələrinin Azərbaycanda və dünyadakı nüfuzuna, beynəlxalq münasibətlərdə ədalət və hüquq bərabərliyinə çağırışlar edən ölkə kimi imicinə xələl gətirmirlərmi? Belə addımları ilə Azərbaycan-Niderland ikitərəfli əlaqələrinin gələcək inkişafını sual altına almırlarmı? Beynəlxalq hüququn ayaqlar altına atılması dünyanın nüfuzlu dövlətlərini niyə narahat etmir? Maraqlara son qoyub, ədaləti müdafiə etmək zamanıdır. Necə ki, Azərbaycan 44 gündə bu mesajı dünyaya ünvanlamaqla yanaşı, işğal olunmuş ərazilərimizdə beynəlxalq hüququ bərpa etdi."

# KİVDF medianın inkişafına dəstək layihələri üzrə elektron informasiya bankını təqdim edir

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (KİVDF) Medianın inkişafına dəstək layihələri üzrə elektron informasiya bankını təqdim edir.***




KİVDF-dən AZƏRTAC-a bildiriblər ki, "Medianın inkişafına dəstək layihələri üzrə elektron informasiya bankı" dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən, habelə kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşməsini nəzərdə tutan və inkişafını dəstəkləyən layihələrin elektron qaydada həyata keçirilməsini təmin etmək üçün yaradılıb.

"Medianın inkişafına dəstək layihələri üzrə elektron informasiya bankı" media subyektləri və nümayəndələri ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu arasında müsabiqələrə dair elektron informasiya mübadiləsini təmin etməklə sürətli və operativ fəaliyyətin həyata keçirilməsinə zəmin hazırlayacaq, bu sahədə elektron informasiya mühitini formalaşdıracaq.

Müsabiqələrin təşkili, müraciət üçün tələb edilən sənədlərin qəbulu, müraciətlərə baxılması və nəticələrin elan edilməsi prosesində səmərəliyinin artırılması, Fond tərəfindən həyata keçirilən layihələrin yerinə yetirilməsi və həmin layihələr üzrə hesabatların təqdim edilməsi prosesinin sadələşdirilməsi, informasiya mübadiləsinin tamlığının və etibarlılığının təmin edilməsi "Medianın inkişafına dəstək layihələri üzrə elektron informasiya bankı"nın əsas məqsədlərindəndir.

"Medianın inkişafına dəstək layihələri üzrə elektron informasiya bankı" regionlarda fəaliyyət göstərən kütləvi informasiya vasitələri və jurnalistlərin də layihələrə müraciətini asanlaşdıracaq, bu prosesin daha əlçatan və çevik formada həyata keçirilməsinə şərait yaradacaq. Elektron informasiya bankına mib.kivdf.gov.az linkindən və ya http://kivdf.gov.az/ saytından istifadə etməklə daxil ola bilərsiniz.

# KİVDF fərdi jurnalist yazıları müsabiqəsi elan edir

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (KİVDF) fərdi jurnalist yazıları müsabiqəsi elan edir. KİVDF-dən AZƏRTAC-a bildiriblər ki, Fondun Müşahidə Şurasının iclasında fərdi jurnalist yazıları müsabiqəsinin keçirilməsi ilə bağlı qərar qəbul olunub.***




"Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın jurnalistlərin mükafatlandırılması və peşəkarlığının artırılmasına dair müddəalarının yerinə yetirilməsi məqsədilə keçirilən fərdi jurnalist yazıları müsabiqəsi 14 mövzu üzrə elan edilir. Müsabiqədə kütləvi informasiya vasitələrində (dövri mətbu nəşrlərdə, teleradio proqramlarında, informasiya agentliklərində, internet informasiya ehtiyatlarında, kinoxronika proqramlarında) işləyən bütün jurnalistlər iştirak edə bilərlər.

Elanda göstərilən mövzuların hər biri üzrə 3 əsas mükafatçı müəyyən ediləcək. Müsabiqədə hər mövzu üzrə birinci yer üçün 1000 manat, ikinci yer üçün 700 manat, üçüncü yer üçün 500 manat məbləğində birdəfəlik pul mükafatı müəyyənləşdirilib. Elanda göstərilən mövzular üzrə mükafatının məbləği 300 manat olan əlavə həvəsləndirici yer (yerlər) nəzərdə tutula bilər. Sənəd qəbulu 2020-ci il 9 dekabr tarixindən başlanır və 2020-ci il 16 dekabr tarixində saat 12:00-da bitir. Ətraflı məlumatı kivdf.gov.az saytından əldə etmək olar.

# Ermənsitanın cinayətlərini sübut edən hesabatlar

*Ombudsmanın beynəlxalq təşkilatlara təqdim etdiyi hesabatlar Ermənsitanın müharibə cinayətlərini faktlarla sübut edir*

**27 sentyabr 2020-ci il tarixindən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikası ərazisinə hərbi təcavüzü nəticəsində mülki əhali arasında çoxsaylı insan tələfatı baş verib, təhsil və səhiyyə müəssisələri, sosial, mədəni, tarixi, dini obyektlər ağır artilleriya qurğularından və qadağan olunmuş silahlardan istifadə edilməklə dağıdılıb, sülh və insanlıq əleyhinə müharibə cinayətlərinin qurbanı olub.**



Ombudsman Aparatının Mətbuat xidmətindən "İki sahil"ə bildirilib ki, Səbinə Əliyeva tərəfindən ilk gündən Naftalan, Tərtər, Gəncə, Bərdə şəhər və rayonlarında, ətraf kəndlərdə yerində faktaraşdırıcı missiyalar həyata keçirilib, beynəlxalq təşkilatlara ünvanlanan 7 hesabat, 8 bəyanat, 12 müraciət, 50 dən çox mətbuat açıqlaması faktlar əsasında hazırlanmaqla təqdim olunub, dünya ictimaiyyəti məlumatlandırılıb, çağırışlar edilib. Hesabatlar və müvafiq məlumatlar 2 dildə www.ombudsman.az rəsmi internet səhifəsində yerləşdirilib, mütəmadi olaraq məlumatlar feysbuk və tvitter sosial şəbəkələrində yayımlanıb.

Təqdim olunmuş hesabatlarda Ermənistanın aktiv döyüş əməliyyatları zonasından uzaq məsafədə yerləşən yaşayış məntəqələrini və hərbi əməliyyatların iştirakçısı olmayan mülki əhalini hədəf seçməklə, çoxsaylı dinc sakinləri, o cümlədən uşaq və qadınları qətlə yetirməsi, tarixi, mədəni və dini abidələri, qəbiristanlıqları əməliyyat-taktiki ballistik raket kompleksindən və ağır artilleriya qurğularından istifadə etməklə atəşə tutması nəticəsində törətdiyi cinayətlər obyektiv və real faktlarla təqdim edilib.

Əsassız mövqe nümayiş etdirən BMT-nin Uşaq Fondu (UNICEF) və digər təşkilatlara ünvanlanan etiraz bəyanatları da təsirli tədbirlərin görülməsinə imkan verib.

Faktaraşdırıcı missiya və araşdırmaların həyata keçirilməsi prosesinə Ombudsmanın dəvəti ilə beynəlxalq təşkilatların, xarici ölkələrin milli insan hüquqları və Ombudsman təssiatlarının nümayəndələri, yerli və xarici televiziya kanalları və digər media nümayəndələri də cəlb olunub.

S.Əliyevanın təşəbbüsü əsasında İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Ombudsmanlar Assosiasiyasının Prezidenti, Türkiyə Respublikasının Baş Ombudsmanın rəhbərlik etdiyi nümayəndə heyətinin iştirakı ilə Gəncədə faktaraşdırıcı missiya həyata keçirilib. Artıq bununla bağlı hesabat dərc olunaraq beynəlxalq ictimaiyyətə təqdim olunub.

Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində tarixi-mədəni və dini abidələrin, o cümlədən ətraf mühitə, bioloji müxtəlifliyə, meşələrə, yeraltı və yerüstü təbii ehtiyatlara vurduğu ciddi ziyanı nəzərə almadan, ekoloji terror aktları törədərək həll yolu kimi meşələrin yandırılmasını öz hərbi məqsədləri üçün istifadə etməsi də faktlar əsasında beynəlxalq təşkilatlara təqdim olunub, xüsusi prosedurların tətbiqi və hüquqi məsuliyyət müəyyən edən tədbirlərin görülməsi də bəyanat və çağırışlarda yer alıb. Ombudsman tərəfindən Ermənistanın hərbi təcavüzü ilə əlaqədar 44 gün davam edən müharibə dövründə Ermənistan silahlı qüvvələri tərəfindən ölkəmizin mülki əhalisinə qarşı fosfor tərkibli kimyəvi silahlardan dəfələrlə istifadə edilməsi ilə əlaqədar müraciət yayımlanıb.

Ombudsman tərəfindən beynəlxalq təşkilatlara müraciətlər əsasında Ermənistan tərəfindən əsir götürülmüş hərbi qulluqçularımızın məsələsi ilə bağlı sistemli işlər görülüb.

Azərbaycanın işğal edilmiş torpaqlarında Ermənistan tərəfindən beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması ilə əhalinin sayını süni şəkildə artırmaq və həmin ərazilərdə demoqrafik vəziyyəti öz xeyrinə dəyişmək məqsədilə Livan, Suriya, İraq və digər ölkələrdən olan etnik ermənilərin həmin işğal olunmuş ərazilərə köçürülməsi ilə etnik təmizləmə və qeyri-qanuni məskunlaşma siyasəti aparması, muzdlular və terrorçu qruplaşmaların cəlb edilməsi də faktlar əsasında beynəlxalq təşkilatlar qarşısında qaldırılıb.

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın cəbhə bölgəsindən uzaq məsafədə yerləşən, əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələrinin qadağan olunmuş silahlardan atəşə tutulması nəticəsində uşaqların qətlə yetirilməsi, o cümlədən Ermənistan tərəfindən uşaqların hərbi əməliyyatlara cəlb olunması, uşaq bağçalarından və məktəblərdən hərbi komandanlıq mərkəzləri, silah-sursat anbarları kimi istifadə edilməsi kimi müharibə cinayətlərinə beynəlxalq hüquqi qiymətin verilməsi ilə bağlı BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına, UNICEF-ə, BMT-nin Uşaq Hüquqları üzrə Komitəsinə, BMT Baş Katibinin Uşaqlar və Hərbi Münaqişələr üzrə Xüsusi nümayəndəsinə və Beynəlxalq Qırmızı Xaç Komitəsinə ünvanlanan müraciətlər faktlar əsasında təsdiq olunur.

Ombudsmanın təqdim etdiyi hesabatların hazırlanması prosesində aparılmış araşdırmalar Ermənistanın iştirakçısı olduğu Konvensiya və beynəlxalq müqavilələrin tələblərini kobud şəkildə pozduğunu faktlar əsasında təsdiqləyir. Belə ki, Ermənistanın 1949-cu il Cenevrə Konvensiyaları, xüsusən III və IV Cenevrə Konvensiyaları, Avropa İnsan Hüquqları Konvensiyası, BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası, "Uşaq hüquqları" haqqında BMT Konvensiyası və onun fakültativ protokolları, "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" UNESCO-nun 1954-cü il Haaqa Konvensiyası, "Dünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyası, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasını və digər beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq normalarının kobud şəkildə pozması müəyyən olunub. Qeyd olunmalıdır ki, istər beynəlxalq hüquq normalarının, istərsə də milli qanunvericiliyin tələbləri baxımından toplanmış bu faktlar aparılan araşdırmalar və istintaq proseslərində əhəmiyyətli rol oynayacaq.

# Şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı işçi qrup yaradılıb

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunda (DSMF) Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın ailələri və müharibə iştirakçıları ilə bağlı işçi qrup fəaliyyətə başlayıb.***




Nazirlikdən "İki sahil"ə bildirilib ki, videomüşavirədə Fondun sədri Himalay Məmişov bildirib ki, işçi qrupda təmsil olunan əməkdaşlar xidməti ərazilərindəki şəhid ailələri və müharibə iştirakçıları ilə görüşürlər. İlk növbədə sosial vəziyyətləri öyrənilir, ehtiyac duyduqları sosial dəstək istiqamətləri müəyyən edilir, yaranan sosial təminat hüquqları izah olunur.

İşçi qrupun yaradılmasında əsas məqsəd şəhid ailələri və müharibə iştirakçılarının sosial təminat hüquqlarının təminatına operativ dəstək göstərilməsidir. Xüsusilə də şəhid ailələrinə sosial təminat növləri üzrə ödənişlərin təyin olunması üçün onların müvafiq sənədləri təqdim etmələrini gözləmədən, bu sənədlər aidiyyəti qurumlardan alınaraq toplanır və təyinatlar həyata keçirilir. Son günlər ərzində şəhid ailələrinin üzvlərindən artıq 500-dək şəxsə pensiya, müavinət və təqaüd təyinatı aparılıb. Proses davam edir.

# Britaniyadakı soydaşlarımız ingilis deputatın ermənipərəst addımına etiraz ediblər

***Böyük Britaniya Krallığında yaşayan azərbaycanlı icmasının üzvləri Vestminister sarayında Dağlıq Qarabağ münaqişəsinə dair müzakirənin təşkil edilməsinə etirazlarını bildiriblər. Bu barədə AZƏRTAC-a Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.***


Dear Deputies,

Kind regards,

Britaniya-Azərbaycan Cəmiyyətinin rəhbəri Fəridə Pənahovanın imzası ilə parlamentarilərə ünvanlanan məktubda qeyd edilib ki, 2020-ci il 10 noyabr tarixli birgə Bəyanatın imzalanması nəticəsində 6 həftəlik müharibəyə və çoxsaylı insan tələfatına son qoyulmasına baxmayaraq, dünyadakı, o cümlədən Böyük Britaniyadakı erməni diasporu və ermənipərəst siyasi xadimlər bilərəkdən bu prosesi pozmağa çalışırlar. Buna nümunə olaraq Böyük Britaniya parlamentinin deputatı, Birləşmiş Krallıq-Ermənistan parlamentlərarası dostluq qrupunun sədri Tim Loutonun dekabrın 8-də Vestminister sarayında Dağlıq Qarabağ müzakirələrini təşkil etmək təşəbbüsü göstərilib.

Soydaşlarımız xatırladıblar ki, "Sabahın xeyir, Britaniya" şousunun 29 oktyabr tarixli buraxılışında çıxışı zamanı Louton yolverilməz və uydurma fikirlər söyləməklə məsələyə qərəzli, haqsız və ədalətsiz şəkildə yanaşdığını sübut edib.

Məktub müəllifləri nəzərə çatdırıblar ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir, Azərbaycanın ərazi bütövlüyü BMT-nin üzv dövlətləri, o cümlədən Böyük Britaniya tərəfindən tanınır və ölkəmiz öz ərazi bütövlüyünü təmin edib. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasına dair 4 qətnaməsinin olduğu, Ermənistanın 30 ilə yaxındır Azərbaycan ərazilərinin 20 faizini işğal etdiyi faktları barədə Loutonun susduğuna diqqət cəlb edilib. Müzakirələrin beynəlxalq hüquqa deyil, erməni diasporunun cəmiyyəti çaşdırmaq niyyətinə xidmət edəcəyindən narahatlıq hissi keçirdiklərini vurğulayan soydaşlarımız deputatları bu debatlara qatılmağa, Qarabağ həqiqətlərini və beynəlxalq hüququn tələblərini fəal şəkildə dilə gətirməyə çağırıblar.

# Münaqişənin ekoloji bədəli

***Məlum olduğu kimi, Azərbaycan və Ermənistan liderləri Dağlıq Qarabağda hərbi əməliyyatların dayandırılmasına dair razılaşma imzalayıblar. Sənəd noyabrın 10-da Rusiyanın vasitəçiliyilə imzalanıb. Bununla da Qarabağda sentyabrın 27-də başlamış hərbi əməliyyatlar başa çatıb. Təxminən ayyarım davam etmiş döyüşlərdə Ermənistan tərəfi böyük itkilər verib.***




Liderlərin birgə bəyanatında bildirilirdi ki, ermənilər işğal altında qalan əraziləri müəyyən vaxt ərzində boşaltmalıdır: Kəlbəcər rayonunu noyabrın 15-dək (bu müddət sonradan noyabrın 25-dək uzadılmışdı), Ağdam rayonunu noyabrın 20-nə, Laçın rayonunu isə dekabrın 1-dək. Başqa sözlə, bu sülh sazişilə Azərbaycanın qələbəsi rəsmən təsdiqlənib. Məhz bu üzdən sənədin imzalanması Azərbaycanda böyük təntənə ilə qeyd olunub. Ermənilər isə sazişi hiddətlə qarşılayıb. Bu, Ermənistan ictimaiyyətində dərin məyusluq yaradıb.

Qeyd edək ki, ermənilər Azərbaycanın işğal altındakı ərazilərinə 1990-cı illərin əvvəllərində köçürülüb. Buna baxmayaraq, onlar ərazilərin Azərbaycana qaytarılmasının qəbuledilməz sayır.

KİV-də yer alan məlumatlardan aydın olur ki, ermənilər Kəlbəcəri tərk etməmişdən qabaq evləri yandırıb, ağacları kəsib, meşələrə od vurub. Onlar hətta məktəb və xəstəxanaları belə, yandırıb, mal-qaranı tələf ediblər. Lakin təəssüf ki, ekoloji problemlərlə məşğul olan beynəlxalq QHT və digər müvafiq qurumlar buna lazımi reaksiyanı göstərməyib və göstərmir. Halbuki, bu qeyri-qanuni hərəkətlər qətiyyətli şəkildə pislənməlidir.

Azərbaycan cəmiyyətini bu ərazilərdəki dağıdılmış binalardan daha çox ermənilərin ətraf mühitə vəhşi hücumu şoka salıb. Baş verənlər ilk növbədə, Ermənistanın 1990-cı ilin əvvəlində buralardan didərgin saldığı azərbaycanlıları qəzəbləndirib. Amma əslində, Azərbaycanın işğal atındakı ərazilərində ekoloji terror işğalın ilk illərindən başlamışdı. Nəticədə son 27 ildə regionun ekosistemi, təbiəti və resursları məhv edilib.

Doğrudur, ötən dövr ərzində beynəlxalq təşkilatlar Qarabağ regionunda və onun ətrafında işğalın ətraf mühiti məhv etdiyinə dair dəfələrlə həyəcan təbili çalıb. Məsələn, Avropa Şurası Parlament Assambleyasının hələ 2016-cı ilin yanvarında qəbul etdiyi 2085 saylı qətnamədə bildirilir ki, Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ regionunu və ona bitişik rayonlarını işğal altında saxlaması nəticəsində Azərbaycanın Aşağı Qarabağda yaşayan vətəndaşları üçün ekoloji və humanitar problemlər yaranıb. Sənəddə bu qınanır. Avropa Şurası Parlament Assambleyası Ermənistan rəhbərliyini su resurslarından siyasi təsir vasitəsi kimi istifadə etməməyə də çağırıb.

Yeri gəlmişkən, ATƏT, BMT-nin İnkişaf Proqramı (UNDP) və Ətraf Mühit Proqramı (UNEP) tərəfindən hələ 2004-cü ilin oktyabrında hazırlanmış "Ətraf mühit və təhlükəsizlik: risklərin əməkdaşlığa çevrilməsi - Cənubi Qafqaz işi" adlı hesabatda bildirilir ki, işğal Azərbaycanın təhlükəsizliyilə yanaşı, ətraf mühitinə də ciddi problemlər yaradıb. Sənəddə deyilir ki, Dağlıq Qarabağda torpağın qeyri-rasional istifadəsi, tullantıların yığılması, meşələrin kəsilməsi və otlaqlardan həddən çox istifadə uzunmüddətli mənfi nəticələrə aparıb çıxaracaq problemlər yaradıb.

ATƏT missiyası 2006-cı il oktyabrın 2-13-də Dağlıq Qarabağ və ona bitişik rayonlardakı yanğınlar nəticəsində ekologiyaya dəymiş zərərlə bağlı da hesabat hazırlamışdı. Sənəddə deyilir ki, bölgədə geniş ərazilər yandırılıb və bu, istər insanlara, istərsə də ətraf mühitə və iqtisadiyyata ciddi təsir göstərib.

Azərbaycan Xarici İşlər Nazirliyinin müvafiq hesabatında isə ölkənin işğal atındakı ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyət və digər məsələlərlə bağlı şok faktlar yer alıb: "Təbii resursların istismarı ilə müşayiət olunan ekoloji fəsadlar (suyun çirkləndirilməsi və tullantıların saxlanılması ilə bağlı problemlər) elə sürətlə artıb ki, hətta "Panerməni ətraf mühit cəbhəsi" daxil olmaqla, Ermənistanda fəaliyyət göstərən, ətraf mühitlə məşğul olan təşkilatlar belə, həyəcan təbili çalmağa başlayıb".

Ermənistanın həyata keçirdiyi ekoloji cinayətləri "Azercosmos"un peyk şəkilləri də sübut edir. Şəkillərdən görünür ki, işğal altındakı ərazilərin flora və faunası məhv edilib. Ekspertlərin ilkin hesablarına əsasən, Ermənistanın ətraf mühitə və təbii resurslara vurduğu zərər 265,3 milyard dollar dəyərindədir.

Qeyd edək ki, Azərbaycanın işğal altındakı ərazilərdəki meşələrin ümumi sahəsi 247,352 hektardır. Bunun təxminən 13,197 hektarı xüsusi əhəmiyyətə malikdir. Bu meşəlikdə 460 növdən çox yabanı ağac və kol bitir. Onlardan 70-i endemi növdür və dünyanın heç bir yerində təbii halda bitmir. Lakin Kəlbəcər rayonunda Beynəlxalq Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi Birliyinin (IUCN) qırmızı kitabına salınmış ağacların bitdiyi 968 hektarlıq ərazi məhv edilib, kəsilmiş ağaclar xarici ölkələrə satılıb.

AMEA Dendrologiya İnstitutunun direktoru Tofiq Məmmədovun sözlərinə görə, Ermənistan işğalçıları Azərbaycan ərazilərində 21 növ endemi, həmçinin yüzlərlə nadir və nəsli kəsilməkdə olan bitki növünü məhv edib. Bəsitçay Dövlət Təbiət Qoruğunda, Qaragöl Dövlət Təbiət Qoruğunda, həmçinin Laçın, Qubadlı və Daşaltı regionlarındakı dövlət təbiət qoruqlarında çinar, qoz, palıd və s. nadir ağaclar kəsilib, işğal atındakı ərazilərdən daşınaraq mebel, çəllək və silah istehsalında istifadə edilib. Bu ağac növlərinin əksəriyyəti nəsli kəsilmək təhlükəsi ilə üzləşib. Bir sözlə, işğal nəticəsində Dağlıq Qarabağ regionu və ətraf rayonların ekosistemi məhv edilib. Bunu "ekosid" kimi də xarakterizə etmək olar. Odur ki, bütün bu faktlarla bağlı cinayət işi açılmalıdır.

Bütün bunlar azmış kimi, Azərbaycanın işğal altındakı ərazilərinin azad edilməsindən sonra orada başqa ekoloji terrorun izləri də ortaya çıxıb. Hər halda, ermənilər işğal altındakı ərazilərdə təxminən 30 il ekoloji terrorla məşğul olub. Azad edilmiş ərazilərin flora və faunasının əsl vəziyyətini anlamaq üçün regionda müvafiq araşdırmalar aparılmalı, təbiətə vurulmuş zərər müəyyən edilməli və bütün bunlara obyektiv elmi qiymət verilməlidir.

Azərbaycan isə öz növbəsində, işğaldan azad edilmiş Zəngilan və Füzuli rayonlarında artıq ağac əkininə başlayıb. Artıq azad olunmuş ərazilərin ekosisteminin bərpası üçün təşəbbüslər irəli sürülür. Lakin bunun üçün kompleks tədbirlərə ehtiyac var. Çünki həmin ərazilərdə bəzi bitki növləri tamamilə məhv edilib, bəzilərininsə nəsli tükənmək üzrədir. Odur ki, mütəxəssislərin ətraf mühitə vurulmuş ziyanı hesablamasından sonra "ekosid"i həyata keçirmiş cinayətkarların məsuliyyətə cəlb edilməsi üçün hüquqi mexanizmi müəyyənləşdirmək olar. Bu halda Ermənistandan kompensasiya tələb etmək də mümkün olacaq. Beləliklə, Azərbaycanın Dağlıq Qarabağ regionu və ona bitişik rayonlarda həyata keçirilmiş ekoloji terror, təbiətə düşmən münasibət təkcə ölkənin flora və faunasına deyil, həm də sülh və təhlükəsizliyə ciddi təhdid yaradır. Bu insanlarda nifrət hissini daha da artırır.

Bir sözlə, "ekosid" coğrafi və tarixi nöqteyi-nəzərdən bir-birinə yaxın Ermənistanla Azərbaycan arasında sülh prosesinə mane olacaq daha bir amildir.

***Nağı Əhmədov***
***Newtimes.az***

# Ermənistanda hakimiyyət çəkişmələri xarici siyasət haqqında nə deyir?




Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) eksperti Vasif Hüseynovun ABŞ-da yayımlanan "Eurasia Review" nəşrində "Ermənistanda hakimiyyət çəkişmələri xarici siyasət haqqında nə deyir?" başlıqlı məqaləsi yayımlanıb.

BMTM-dən AZƏRTAC-a bildiriblər ki, məqalədə İkinci Qarabağ müharibəsində ağır məğlubiyyətə düçar olmuş Ermənistanda dərin siyasi böhranın başladığı və bu böhran fonunda ölkənin son 30 il ərzindəki xarici siyasətinə aid bəzi nüansların ortaya çıxdığı qeyd olunur.

V.Hüseynov bildirir ki, Ermənistanın ikinci prezidenti Robert Köçəryan tərəfindən açıqlanmış bəzi məqamlar xüsusilə diqqət cəlb edir. Belə ki, Köçəryan bəyan edib ki, 2020-ci ilin iyul ayında Tovuzda törədilmiş qarşıdurma məhz Ermənistanın təxribatı nəticəsində baş verib. "Qeyd etmək lazımdır ki, Köçəryana qədər Ermənistan hakim dairələri bu faktı ardıcıl şəkildə inkar edib və Tovuz hadisələrində Azərbaycanı günahlandırırdılar. Köçəryan müharibə ilə bağlı da bəzi məqamlara aydınlıq gətirərək bildirir ki, Nikol Paşinyanın xarici siyasətdə etdiyi səhvlər və təxribatlar müharibənin baş verməsində xüsusi rol oynadı və onu qaçılmaz etdi",- deyə müəllif yazır.

V.Hüseynov bildirir ki, N.Paşinyanın R.Köçəryana cavablarında isə 2018-ci ildəki hakimiyyət dəyişikliyindən öncəki erməni liderlərinin səhvlərinə diqqət çəkilir: "O, xalqa müraciətində etiraf edib ki, beynəlxalq ictimaiyyət həmişə Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyıb. N.Paşinyan bu nəticənin hasil olmasında əvvəlki Ermənistan liderlərini günahlandırır".

Sonda Vasif Hüseynov bildirib ki, Ermənistanda hazırda aparılan siyasi debatlar bunu göstərir ki, məğlubiyyət şokuna baxmayaraq, ermənilərin əvvəlki səhvləri təkrarlamayacağına inam azdır. Məsələn, müxalifət tərəfindən baş nazirliyə namizəd kimi təqdim olunmuş Vazgen Manukyan hakimiyyətə gələcəyi təqdirdə istənilən anti-Türkiyə ittifaqında yer alacağını bəyan edir. "Ermənistanda bu siyasi təfəkkürün qaldığı müddətdə bölgədə sülhün və təhlükəsizliyin bərqərar olması çətindir",- deyə V.Hüseynov əlavə edir.

# Niderland parlamentinin erməni təəssübkeşliyi

***Ermənistanın sentyabrın 27-də növbəti hərbi təxribatından sonra Azərbaycan Ordusunun 44 gün davam edən əks-hücum əməliyyatları noyabrın 10-da tarixi Qələbəmizlə başa çatdı. Həmin gün Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanan birgə Bəyanatla Silahlı Qüvvələrimizin hərbi cəbhədəki möhtəşəm qələbəsi diplomatik sahədə də rəsmiləşdirildi. Beləliklə, xalqımızın 30 il çəkən torpaq həsrətinə son qoyuldu, ədalət bərpa edildi. Eyni zamanda, Prezident, Ali Baş Komandan İlham Əliyev qalib Sərkərdə, Azərbaycan Ordusu ən güclü ordu, xalqımız isə ən böyük, məğrur, yenilməz xalq olduğunu bir daha təsdiqlədi.***



Bəli, 44 günlük Vətən müharibəsi başa çatıb, Ermənistanın faktiki kapitulyasiyası kimi qiymətləndirilən və Azərbaycanın qələbəsini rəsmiləşdirən 10 noyabr Bəyanatının mühüm hissəsi icra olunub. Artıq bir aydır ki, atəşkəs rejiminə əməl olunur. Amma erməni diasporunun təsiri altında olan ölkələrin Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış sənədin əleyhinə faaliyyəti ara vermir. Belə ki, 10 noyabr bəyanatı Avropanın bəzi az sayda ölkələrində olduğu kimi, erməni diasporu və lobbisinin təsiri altında olan Niderland parlamentindəki anti-Azərbaycan, anti-Türkiyə, islamofob, ultra-sağçı və ultra-millətçi qüvvələrin hədəfinə çevrilib.

Qeyd edək ki, hələ müharibənin başa çatmasından sonrakı ilk günlərdə bu ölkənin parlamentinin Nümayəndələr Palatasında Azərbaycan və Türkiyə əleyhinə bir sıra qətnamə təşəbbüsləri irəli sürülüb. Bu təşəbbüslər qardaş Türkiyə və Azərbaycana qarşı sanksiyaların tətbiq olunması, qondarma rejimin tanınması, uydurma "suriyalı terrorçular" məsələsinin araşdırılması və s. bu kimi cəfəng çağırışları özündə ehtiva edir. Bu qəbildən olan layihələrin müəllifləri isə Martin van Helvert (Xristian Demokratik Çağırış Partiyası), Joel Voordevind (Xristian İttifaqı Partiyası), Sven Koopmans (Azadlıq Naminə Xalq Partiyası) və digər ultra-sağçı, anti-Türkiyə və faşist ideologiyasının təbliğatçıları kimi ad qazanmış şəxslərdir. Ermənipərəst qüvvələrin əlaltıları kimi tanınan bu şəxslərin səyləri nəticəsində noyabrın 17-də Niderland parlamenti tərəfindən Azərbaycan və Türkiyə əleyhinə bir neçə tövsiyə xarakterli qətnamə qəbul edilib. Amma görünən odur ki, bu, ermənipərəst qüvvələrin tam ürəyincə olmayıb. Mövcud reallığı həzm etmək istəməyən həmin qüvvələr parlamentdə mütəmadi olaraq mövzunu qaldırır, hökumətə müxtəlif təxribat xarakterli suallar ünvanlayırlar. Hazırda Niderland Hökumətinin tutduğu mövqe isə bir tərəfdən təqdir olunmalıdır. Belə ki, hökumət parlamentdəki təxribatçı təşəbbüsləri müəyyən mənada neytrallaşdırmağa və sənəd layihələrini balanslaşdırmağa çalışır. Digər tərəfdən, bu yöndə səylərin yetərsizliyi ortadadır. Hökumətin reallığı əks etdirən və beynəlxalq hüquqa söykənən daha sərt mövqe ortaya qoymaması parlamentdə radikal qüvvələrin işini asanlaşdırır.

Xatırlatmaq yerinə düşər ki, hələ ötən ayın 18-də Prezident İlham Əliyev Niderlandın ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Paulin Eizemanın etimadnaməsini qəbul edərkən bu məsələnin üzərində xüsusi dayanmışdı. Prezident Niderland parlamentinin bu təxribatçı qərarlarına kəskin münasibətini onun diqqətinə çatdıraraq, parlamentdəki müzakirələr zamanı Niderland XİN başçısı S.Blokun balanslaşdırılmış yanaşma ilə çıxış etməsini təqdir etsə də, ümumilikdə belə ədalətsiz qərarların ölkələrimiz arasında yaxın əlaqələrin qurulmasına kömək etməyəcəyini bəyan etmişdi.

Ekspertlərin də fikirlərinə görə, Niderland parlamentindəki təxribatçı qrupun fəaliyyətinə ara verilməməsi bu ölkənin hökumətini ciddi tədbirlər görməyə vadar etməlidir. Hökumət ikitərəfli münasibətlərə zərbə vura biləcək fəaliyyəti durdurmaq üçün səylərini gücləndirməlidir.

Görünən odur ki, Azərbaycanın Ermənistanı kapitulyasiyaya məcbur edən tarixi Qələbəsini həzm edə bilməyən erməni lobbisinin təsiri altında olan Niderland deputatları belə təxribatlara yol verərkən ölkələrinin Azərbaycanda və dünyadakı nüfuzuna, beynəlxalq münasibətlərdə ədalət və hüquq bərabərliyinə çağırışlar edən ölkələrinin imicinə xələl gətirdiklərinin fərqinə varmırlar. Anlamaq lazımdır ki, ermənipərəst qüvvələrin Niderland parlamentindəki addımları Azərbaycanda holland biznesinin mövcudluğunu, Azərbaycan-Niderland ikitərəfli əlaqələrinin gələcək inkişafını sual altında qoya bilər.

Bir məsələni də xatırladaq ki, uzaq olmayan keçmişdə, keçən əsrin 70-ci illərinə qədər müstəmləkəçi ölkə olan Niderland Amerika, Asiya və Afrika qitələrində onlarla xalqı siyasi və iqtisadi əsarətdə saxlamışdı. Dünyada ən çox sayda müsəlman əhalisi olan İndoneziya kimi nəhəng ölkə əsrlər boyu holland müstəmləkəçiliyinə qarşı mübarizə aparıb və öz müstəqilliyini 1945-ci ildə elan etməsinə baxmayaraq, illərlə davam edən müharibədən sonra Niderland yalnız 1949-cu ilin sonunda onun suverenliyini tanımağa məcbur olub. Tarixi faktlara istinad etsək, həmin illərdə Niderland hərbçiləri tərəfindən İndoneziyada bir çox qətllər törədilib. Bunlar arasında 1947-ci ilin 9 dekabrında Yava adasının qərbində yerləşən Ravaqede kəndində (hazırda Balonqsari kəndi) 431 kəndlinin güllələnməsini qeyd etmək yetərlidir. İndoneziyanın müstəqillik müharibəsi illərində vəhşicəsinə qətlə yetirilmiş mülki şəxslərin yaxınları tərəfindən indiyə qədər Niderland məhkəmələrində iddialar qaldırılır.

Bundan əlavə, Srebrenitsa soyqırımı 90-cı illərin Balkan müharibələrinin ən acı səhifəsi kimi tarixdə yerini alıb. 1995-ci ilin iyulunda Bosniya və Herseqovinanın Srebrenitsa şəhərində 8300-dən çox insanın soyqırımına məruz qalmasının məhz BMT-nin Niderland sülhməramlı kontingentinin fəaliyyətsizliyi və qorxaqlığı nəticəsində baş verməsi danılmaz tarixi faktdır. Niderland Ali Məhkəməsinin 2013-2014-cü illərdə qəbul etdiyi qərarlarla ölkə yalnız 300-dən bir qədər artıq insanın qətlində günahkar olduğunu etiraf edib.

Niderland tarix səhifələrinə soyqırım və vəhşiliklərlə iz qoyan bir ölkədir. Ermənipərəst qüvvələr Niderland parlamentində, siyasi dairələrində kök sala bilib. Yada salmaq kifayətdir ki, Niderland siyasi dairələrinin anti-Türkiyə mövqeyi 2017-ci ilin martın ortalarında özünün pik nöqtəsinə çatmışdı. Türkiyənin Xarici İşlər Naziri M.Çavuşoğlunun ölkəyə girişinə qadağa qoyulmuş, Ailə və Sosial Siyasət naziri, olarkən Betül Sayan Kaya isə polis tərəfindən güc tətbiq edilməklə Niderlanddan zorla çıxarılmışdı.

Hazırda da Niderland cəmiyyətində ultra-sağ, ultra-xristian və radikal-şovinist meyillər azalmayıb, əksinə daha da artır. Təəssüflər olsun ki, Türkiyə və digər müsəlman əsilli vətəndaşlara qarşı təhqir və hücumlar, ölkə mediasında açıq islamofob təzahürlər, siyasətçilərin İslam dininin dəyərlərini təhqir etməsi, Avropa İttifaqı daxilində sonradan birliyə qoşulmuş ölkələrə qarşı ayrı-seçkilik Niderlandın dövlət siyasətinin bir hissəsinə çevrilib. Özünü Avropanın aparıcı ölkəsi sayan bir dövlətin siyasətini ultra-sağçı ekstremist siyasətçi, Azadlıq Naminə Xalq Partiyasının rəhbəri Qert Vilders, həmçinin Martin van Helvert, Joel Voordevind və Sven Koopmans kimi radikal elementlərin təbliğ etdiyi ideologiya müəyyən edir.

Bu günün reallığı isə ondan ibarətdir ki, heç bir ermənipərəst qüvvələr müstəqillik tariximizin şanlı səhifələrinə kölgə sala bilməz. Azərbaycanı haqq yolundan heç kim və heç nə döndərə bilməz. Biz əzəli torpaqlarımızı işğalçılardan təmizləmişik və orada özümüzün suveren hüquqlarımızı bərpa edirik. Bunu gözü götürməmək, ən azı insanlığa xəyanətdir. Tarix boyu haqqı dananlar, zalımın tərəfini tutanlar bağışlanmayıblar. Ermənipərəst qüvvələr bunun fərqinə varmalıdırlar.

**Nigar Orucova**

## Andranik Koçaryan: "Kapitulyasiyanı həzm edib, Azərbaycanla dialoqa getməliyik"



"Ermənistan gələcəyin mənzərəsini yaxşılaşdırmaq üçün Azərbaycanla dialoqa getməlidir". SİA Novosti Armeniya-ya istinadən xəbər verir ki, bu barədə erməni parlamentinin hakimiyyətyönlü "Mənim addımım" fraksiyasının təhlükəsizlik və müdafiə komissiyasının üzvü Andranik Koçaryan deyib.

"Biz kapitulyasiyanı həzm edib yolumuzu davam etdirməliyik, məsuliyyət səviyyəmizi anlamalıyıq və sonda nə qədər çətin olsa belə, qalib tərəflə dialoqa getməyə cəhd göstərməliyik", deyə qeyd edən Ermənistan parlamenntinin komissiya üzvü buna misal olaraq nümunə gətirib və qeyd edib ki, bütün ölkələr müharibələrdən sonra həmin yolu keçiblər.

Deputat hesab edir ki, ikitərəfli diplomatik münasibətlərin qurulması Ermənistan və Azərbaycan arasındakı gələcək mənzərəni dəyişə bilər. O, eyni zamanda qeyd edib ki, baş verənləri unutmaq da olmaz və diplomatik əlaqələrə iqtisadi, hərbi ruskləri qiymətləndirərək əsaslanmaq lazımdır.

Xatırladaq mi, bir müddət əvvəl Ermənistanın iqtisadiyyat naziri Vaan Kerobyan üçtərəfli bəyannamənin şərhini verərkən bəyan etmişdi ki, regionun nəqliyyat kommunikasiya sistemlərinin blokadadan çıxarılması yerli iqtisadiyyata imkanlar açacaq. "Türkiyə limanları açılacaq, mümkündür ki, bizim məhsullarımız üçün Azərbaycan bazarları, həmçinin Azərbaycan məhsulları üçün bizim bazarlar açılacaq", deyə erməni nazir bildirmişdi.

**Rövşən RƏSULOV**

## Seyran Ohanyan Serj Sarkisyanı mart hadisələrinin təşkilatçılığında ittiham edir



Ermənistanda ictimai-siyasi vəziyyət yenidən gərginləşib. Keçmiş müdafiə naziri Seyran Ohanyanla Serj Sarkisyan arasında qalmaqal getdikcə dərinləşir. O, Ermənistan rəhbərini 1 mart hadisələrinin təşkilatçılığında ittiham edir. Belə ki, tərəflər doqquz il əvvəl İrəvanda martın 1-də baş verən qırğınlarda bir-birilərini günahlandırırlar.

2008-ci ilin martın 1-i Ermənistan tarixinə qara hərflərlə yazılıb. Həmin gün baş verən qanlı toqquşmada 10 nəfər dinc sakin öldürülüb, 200 nəfər müxtəlif dərəcədə xəsarət alıb, daha 100 nəfər isə həbs edilib. 1 mart hadisələrinin öyrənilməsi və faktların toplanması üzrə qrup hələ də hadisələrdə əli olanları üzə çıxarmayıb. Doqquz il sonra həmin iğtişaşlar yenidən hadisələrin iştirakçısı, keçmiş müdafiə naziri Seyran Ohanyan tərəfindən Ermənistan gündəminə gəlib.

S.Ohanyan jurnalistlərə müsahibəsində bildirib ki, onlara həmin gün İrəvanın küçələrinə qoşun yeridilməsi tapşırığı verilib. Müdafiə Nazirliyinin tabeliyində olan hərbçilərin böyük hissəsi S.Sarkisyana və onun klanına məxsus obyektlərin mühafizəsinə cəlb olunub. Xüsusi təyinatlı qoşunlar isə dinc əhalinin üzərinə yeridilib. Aksiya zamanı iğtişaşları da S.Sarkisyanın mülki geyimdə olan adamları törədib. Bu isə nümayişçilərə atəş açmaq üçün bəhanə olub.

Ermənistanın Xüsusi Təhqiqat Xidmətinin keçmiş üzvü Andranik Koçaryan da baş verənlərdə S.Sarkisyanın birbaşa iştirakı olduğunu deyib. O bildirib ki, 1 mart qurbanları cəmiyyətə cinayətkar kimi təqdim edilib. Onlar sadəcə Ermənistanda növbəti prezident seçkisindən sonra seçkinin nəticələrinə etiraz edən dinc sakinlər olublar.

Xatırladaq ki, 2008-ci il martın 1-dən 2-dək davam edən etiraz aksiyası mitinq iştirakçıları ilə polis arasında qarşıdurma ilə yekunlaşıb. S.Sarkisyan isə hakimiyyəti zor gücünə ələ keçirdikdən sonra ölkə rəhbəri kimi cinayətkar mahiyyətinə uyğun fəaliyyətini davam etdirməkdədir.

# Suriyalı ermənilər 3 ölkədə terror aktlarına hazırlaşır

***PKK/YPG terror qruplaşmalarının tərkibində döyüşən erməni taboru Qarabağdan Suriyaya geri qayıdıb. Sarsıdıcı məğlubiyyətlərini həzm edə bilməyən erməni terrorçuları Türkiyənin, Azərbaycanın və Rusiyanın mülki hədəflərinə hücumlar planlaşdırır. SİA-ya daxil olan məlumata görə, bu haqda Türkiyənin Busra Hakimiyyet nəşri ölkənin təhlükəsizlik sferasında fəaliyyət göstərən mənbəsinə istinadən yazır.***



### “Bursa Hakimiyyet” nəşri: “Bu ilin yayında tabor Qarabağa göndərilmişdi”

Qeyd edilir ki, erməni taboru 2019-cu ilin aprelində Suriyanın şimalında yaşayan etnik ermənilərdən ibarət olaraq yaradılıb və onlar əsasən PKK/YPG təşkilatlarının üzvləridirlər. Bu ilin yayında tabor Qarabağa göndərilmişdi. Taborun silahlıları artıq Suriyanın şimalına geri dönüblər və bəyan edirlər ki, Ermənistanın məğlubiyyətinin baiskarları Azrbaycanla yanaşı, Türkiyə və Rusiyadır.

Digər tərəfdən, Türkiyə ordusunun bölgədə apardığı uğurlu anbti-terror əməliyyatları nəticəsində kürd terror qruplarının tərkibində döyüşən bir sıra erməni yaraqlıları məhv edilib.

“Erməni taboru özünü yalnız Bəşər Əsəd ordusunun nəzarəti olan ərazilərdə təhlükəsiz hiss edir, belə ki, Suriya dövlət məmurları ilə yaxşı münasibət saxlamaqdadırlar”

Bununla bağlı Bursa Hakimiyyet qəzeti yazır: “Türkiyə ordusunun uğurlu əməliyyatları nəticəsində erməni taboru rahat hərəkət etmək imkanlarını itirib və hazırda regiondakı mövcudluqlarını qoruyub-saxlamağa cəhd göstərir. Lakin həmin cəhdlərinə rəğmən, acı talelərindən yan qaça bilməyəcəklər”.

Əldə edilən digər məlumatda isə bildirilir ki, erməni taboru özünü yalnız Bəşər Əsəd ordusunun nəzarəti olan ərazilərdə təhlükəsiz hiss edir, belə ki, Suriya dövlət məmurları ilə yaxşı münasibət saxlamaqdadırlar.

### “PKK tərkibindəki erməni qruplaşmaları səs-küylü terror aksiyaları keçirmək niyyətindədirlər”

Beləliklə, “Qarabağdakı sarsıdıcı məğlubiyyətləri ilə heç cür barışa bilməyən Suriyanın erməni terrorçuları çıxış yollarını terror törətməkdə görürlər və hətta onların terror aksiyaları keçirmələri üçün planlarının da olduğu bildirilir”, deyə yazan türk nəşri yazır.

Əlavə olunub ki, əldə edilən informasiyaya görə, PKK tərkibindəki erməni qruplaşmaları səs-küylü terror aksiyaları keçirmək niyyətindədirlər. “Onlar məğlubiyyətlərinə görə Rusiyanı da ittiham edirlər, ona görə də ölkənin mülki obyektlərinə qarşı hücumlar planlaşdırırlar”, mənbə Türkiyə nəşrinə bildirib.

Xatırladaq ki, terrorçu taborun adı Nubar Ozanyanın adını daşıyır. Bu terrorçu YPG-nin yaraqlılarından olub və Türkiyənin təhlükəsizlik gücləri tərəfindən 2017-ci ildə öldürülüb.

***Rövşən RƏSULOV***

# Bakıya qara yaxan Niderlandın qara tarixi



Türkiyə və Azərbaycana qarşı sanksiyaların tətbiq olunması, keçmiş və qondarma rejimin tanınması, uydurma “suriyalı terrorçular” məsələsinin araşdırılması və s. cəfəng çağırışlar edən Niderland parlamentinin ultra-sağçı, antitürkiyə və faşist ideologiyasına mənsub ermənipərəst deputatlarının qaranlıq və soyqırımlarla zəngin tarixlərinə baxmaları daha doğru olar. Sahəsi Azərbaycandan az - 41.528 km, əhalisi isə az fərqlə çox - 17.306.912 nəfər olan bu ölkə dünya tarixinə misilsiz soyqırım aktları törədərək iz qoyub.

Bu sözləri Axar.az-a Qlobal və Regional Təhlükəsizlik Problemləri Mərkəzinin rəhbəri, politoloq Qabil Hüseynli noyabrın 17-də Azərbaycan və Türkiyə əleyhinə Niderland parlamenti tərəfindən bir neçə tövsiyə xarakterli qətnamə qəbul olunması haqda danışarkən deyib.

O bildirib ki, bu gün Azərbaycan və Türkiyə əleyhinə əsassız iddialarla çıxış edən və heç bir hüquqi əsası olmayan “tövsiyə xarakterli” qətnamələr qəbul edən ölkələrin nədənsə yaxın keçmişləri soyqırım, qətliam və insanlığa yaraşmayan aktlarla zəngindir:

“Reallıqla heç cür barışmaq istəməyən bu qüvvələr parlamentdə mütəmadi olaraq mövzunu qaldırır, hökumətə müxtəlif təxribat xarakterli suallar ünvanlayırlar. Ədalət naminə demək lazımdır ki, Niderland hökuməti parlamentdəki təxribatçı təşəbbüsləri müəyyən mənada neytrallaşdırmağa və sənəd layihələrini balanslaşdırmağa çalışır. Amma aydındır ki, hökumətin reallığı əks etdirən və beynəlxalq hüquqa söykənən birmənalı mövqe nümayiş etdirməməsi parlamentdə radikal qüvvələrin əl-qolunu daha da açır.

Keçən əsrin 70-ci illərinə qədər müstəmləkəçi ölkə olan Niderland Amerika, Asiya və Afrika qitələrində onlarla xalqı siyasi və iqtisadi əsarətdə saxlamışdı. Fildişi Sahili, Qana, Cənubi Afrika, Anqola, Namibiya və Seneqalda müstəmləkəsi olan Niderland eyni zamanda irqçiliyin də banilərindəndir. Afrikadakı müstəmləkələrini nəzarətdə saxlamaq üçün yerli qaradərili xalqları kütləvi qətl edən, sağ qalanları isə Şimali və Cənubi Amerikadakı müstəmləkələrinə kölə kimi aparan bu ölkə fərqli qitələrin ağdərili və qaradərili insanlarının da bir-birinə irqçilik etməsinə zəmin yaradıb”.

Politoloqun sözlərinə görə, ərazisinə görə Fransadan xeyli kiçik olan Niderlandın soyqırım tarixi Fransadan böyükdür:

“Niderlandın Afrikadakı müstəmləkə izlərindən ən çox bilinəni xoixoi xalqına qarşı soyqırımdır. 1659, 1673 və 1674-1677 illər ərzində xoixoi qəbiləsini kölələşdirmək üçün ard-arda soyqırımlar edən Niderland, görəsən, bu faktları unudub, ya unutmaq istəyir?

Dünyada ən çox müsəlmanın yaşadığı İndoneziya kimi nəhəng ölkə əsrlər boyu holland müstəmləkəçiliyinə qarşı mübarizə aparıb. Öz müstəqilliyini 1945-ci ildə elan etməsinə baxmayaraq, illərlə davam edən müharibədən sonra Niderland yalnız 1949-cu ilin sonunda onun suverenliyini tanımağa məcbur olmuşdu. Həmin illərdə Niderland hərbçiləri tərəfindən İndoneziyada bir çox qətllər törədilmişdi. Bunlar arasında 1947-ci ilin 9 dekabrında Yava adasının qərbində yerləşən Ravaqede kəndində (hazırda Balonqsari kəndi) 431 kəndlinin güllələnməsini qeyd etmək olar. İndoneziyanın müstəqillik müharibəsi illərində vəhşicəsinə qətlə yetirilmiş mülki şəxslərin yaxınları tərəfindən indiyə qədər Niderland məhkəmələrində iddialar qaldırılır. Halbuki bu gün bu ölkənin parlamentinin deputatları Azərbaycanı radikal islamçılıqda və terrorçuluqda ittiham edir. Görəsən, İndoneziyada illərlə aparılan missioner fəaliyyəti, müsəlman əhalinin sıxışdırılması, soyqırıma məruz qalması nədir?

Biz Niderlad parlamentinə bu və bu kimi bir çox real tarixi faktları təqdim edə bilərik. Bəlkə bu zaman kimi nədə ittiham etdiklərini anlayar, reallığın şillesi ilə özlərinə gələrlər”.

# Ermənistan “dəymədüşər kəndli qadın” rolunda

Ermənistanın yeni xarici işlər naziri Ara Ayvazyanın doğurduğu ilk təəssüratlar onun bu yaxınlarda istefa vermiş, haqqında gülməcələr qoşulmuş nazir müavini Şavarş Koçaryanla müqayisədə o qədər də üstün olmadığını söyləməyə əsas verir. Daxilimdəki subyektivlik hissini boğmağa, bu adamı maksimum neytral mövqedən qiymətləndirməyə çalışsam da, nəticə dəyişmir: mənim fikrimcə, Ayvazyan indiyə qədər Ermənistan XİN-ə rəhbərlik edənlərin hamısından zəifdir. Doğrudur, ölkəni və xalqı bugünkü fəlakət həddinə çatdıran onun sələfləri olub, amma onlar milli diplomatiyanın rəhbəri roluna daha münasib, daha hazırlıqlı görünürdü.

Yeni nazir çıxışının mətnini kağız vərəqindən oxuyanda danışmasından, danışanda isə düşünməsindən daha uğurlu alınır. AZƏRTAC xəbər verir ki, söhbət Rusiya və Ermənistan xarici işlər nazirliklərinin rəhbərlərinin Moskvada təşkil edilmiş birgə mətbuat konfransından gedir (aşağıdakı videoda mətbuat konfransı 19-cu dəqiqədən başlayır https://www.youtube.com/-watch?v=lLd6uxpjb0g).

Ayvazyanın orada oxuduğu çıxışının mətnini ondan ötrü hansı “ağıl dəryası”nın yazdığını güman etmək çətindir (sən demə, “Arsax”ın işğal edilmiş rayonları” və bir sıra başqa anlayışlar da varmış...), lakin sonuncu suala (videoda 52-ci dəqiqənin sonu) nazirin uzun-uzadı cavabına qulaq asanda mənim də başım ağrıdı və yəqin ki, onun yanında dayanmış Lavrovun da başı ağrıyıb. Bu mənzərə xarici işlər nazirinin mətbuat konfransından daha çox “Vladimir Solovyovla axşam” tok-şousuna bənzəyirdi.

Bir məqam xüsusi qeyd edilməlidir. Ayvazyan deyir ki, “Türkiyə Yerevanın etimadını qazanmalıdır” (bu məntiqlə düşünsək, Türkiyə tərəfindən Yerevanın özünü qazanmaq onun etimadını qazanmaqdan daha asan olar). Özü də bu sözlər Ankaranın indi sərhədləri açmaq təklifi barədə sualın cavabında deyilib. Ümumiyyətlə, hiss edirəm ki, Ermənistanın yeni nazirindən hələ çox hoqqabazlıqlar gözləmək lazımdır.

Bütün bunlar bir Polşa filmindəki səhnəni xatırladır: bütün film boyunca bir kəndli qadın həmin kəndin kəndxudasından xahiş edir ki, onunla evlənsin, kəndxuda isə bunu istəmir ki, istəmir. Nəhayət, təngə gəlmiş kəndxuda həmin qadının çoxdan gözlədiyi təklifi edəndə qadın özünü “ələkeçməz qala” kimi göstərməyə, sadə dildə desək, “naz eləməyə” başlayır.

Qulaq asın, Ara Henriyeviç, sizin ağlınız başınızdadır? 27 ildir ki, Ermənistan Türkiyədən sərhədaşırı ticarət üçün qapıların açılmasını və Qars-Gümrü dəmir yolunda hərəkətin bərpa olunmasını xahiş edir. Bütün bu illər ərzində Türkiyənin sizə cavabı belə olub ki, Azərbaycanın işğal edilmiş əraziləri azad olmayınca, sərhəd bağlı qalacaq. Bəs bütün bu illər ərzində “Qarabağ problemi və Türkiyə ilə sərhəd məsələsi birbiri ilə bağlı olmayan iki paralel prosesdir” və “sərhədləri ilkin şərtlər qoymadan açmaq lazımdır” deyən kim idi? Siz deyildinizmi?

Bu iki prosesin əlaqələndirilməsinə görə Bakını tənqid edən kim idi? Siz deyildinizmi?. Ermənistan-Türkiyə sərhədini “Avropanın tezliklə sökülməli olan sonuncu Berlin divarı” adlandıran kim idi? Siz deyildinizmi?

İndi Azərbaycan öz torpaqlarını işğaldan azad edib (özü də bu, sizin tərəfdən heç də könüllü şəkildə olmayıb) və sərhədlərin bağlı olmasının səbəbi aradan qalxıb. İndi, Türkiyə özü (ÖZÜ!!!) sizə bu “dəmir pərdə”ni qaldırmağı və sizin iflasa uğramış iqtisadiyyatınıza bir qədər nəfəs almaq imkanı verilməsini təklif etdiyi bir vaxtda siz hələ “gəl məni dilə tut” mövqeyində dayanırsınız?!. Sizinlə sərhədin açılması Türkiyəyə 100 il lazım deyil! Türkiyənin sahillərini dörd dəniz yuyur və bu ölkə sizdən başqa daha yeddi dövlətlə həmsərhəddir! Bunun müqabilində o, hələ sizdən xahiş etməlidir?

Gedin, işinizlə məşğul olun!. Bu yerdə bir trollinq yerinə düşər. Ağ evdə, Brüsseldə və ya elə Yerevanın özündə kimsə bu mövzuda söhbət açarsa, Ankaranın ən yaxşı cavabı belə olardı: “Biz hələ Yerevanın etimadını qazanmamışıq. Biz öz üzərimizdə işləyirik”.

**_Multikulturalzim çoxmillətli ölkələrdə etnik-mədəni müxtəliflik kimi uzun müddətli tarixi şəraitdə baş verir. Azərbaycanda tarixən onlarla etnik qrup birgə və qarşılıqlı inteqrasiya şəraitində azad yaşayıblar. Ölkəmizdə türklər, ruslar, ləzgilər, talışlar, tatarlar, tatlar, dağ yəhudiləri, kürdlər, udinlər, avarlar, saxurlar, buduqlar, ingiloylar, qrızlar, malakanlar və başqa etnik azlıqlar heç vaxt qarşıdurma halı baş vermədən öz milli, mədəni, dini ənələrini yaşadıb və təbliğ ediblər._**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

**_Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliğı" istiqaməti çərçivəsində hazırlanıb._**

# Azərbaycançılıq multikulturalizmə söykənən ideologiyadır

Müasir dövrdə multikulturalzim ölkəmizin milli siyasətində mühüm və önəmli bir yer tutur. Dövlətin siyasətinin əsas prioritetlərindən olan demokratik prinsiplər multikultural dəyərlərin inkişafı üçün münbit zəmin yaradıb.

Multikulturalizm hamı tərəfindən tanınan, müxtəlif mədəniyyətlərə tolerant münasibətə əsaslanan dinc, yanaşı yaşama prinsipidir. Azərbaycan üçün fərqli baxışlara, adətlərə, vərdişlərə dözümlülük mövqeyi bəsləmək demokratik dövlət strategiyasıdır. Azərbaycan ümummilli həmrəyliyin inkişafı üçün əlverişli mühitdir, mənsubiyyətindən asılı olmayaraq ərazisində məssahədə müəyyən uğurlar qazanır.

Müxtəlif mədəniyyətlərin bir-biri ilə iç-içə yaşaması ilə xarakterizə olunan multikultural cəmiyyətlərdə mədəniyyətlər sanki süzgəcdən keçirilir və müsbət amallara sığınan mədəni dəyərlər öz varlığını qotuyub saxlaya bilir. Zamanın humanist və tolerant dəyərləri ilə uyğnlaşa bilməyən mədəniyyət isə sərfnəzər edilir.

Mədəniyyətlərin qarışması zamanı xalqların nümayəndələri müsbət dəyərləri, üstün cəhətləri qəbul etməklə əksər hallarda mənfi, zərərli adət və ənənələrdən qurtulurlar.

Multikulturalizm şəraitində ənənələrə mənsub insanlar bir-birlərini rədd və inkar etməkdən daşınıb, bir-birlərini qəbul etməyə, yanaşmalarına və dini inanclarına daha uyğun bir mühit formalaşdırmalarına səbəb olacaq. Bu cür yanaşmaların ən əhəmiyyətli faydası tolerantsızlıqdan tolerantlığa, qınamaqdan şəfqətli olmağa, düşmənçilikdən humanist dostluğa, rəqabətdən birliyə, kompromisə, ədavətdən xilas olunmağa və xaosdan nizamlı həyat tərzinə gəlib çıxmasıdır.

Multikulturalizm prosesi müsbət yönümlü bir tendensiya olduğu üçün bu prosesin parlaq gələcəyi də göz önündədir. Məhz multikulturalizm prosesi vasitəsilə milli azlıqlara mədəniyyətində kunlaşan hər bir vətəndaş Azərbaycanın sərvətidir.

Tarix boyu ölkəmiz tolerantlığın, dini dözümlüyün və mədəniyyətlərarası dialoqun vətəni kimi dünyaya açıq olmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə əsasən mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq hamının hüquq və vəzifələrinə hörmət təmin edilmişdir. Müstəqilliyin inkişafı gedişində multikultural dəyərlərin qorunması sahəsində əsaslı hüquqi baza təşəkkül tapmışdır ki, bununla da diskriminasiyanın, rasizmin, ksenofobiyanın, islamafobiyanın və anti-semitizmin təzahürü yolunda ciddi maneələr yaradılmışdır.

Müasir dövrdə azad və müstəqil ölkəmiz dünyada tolreantlığın, humanizmin, multikulturalizmin əsas mərkəzlərindən birinə çevrilmişdir. Bu baxımdan ölkəmizdə multkulturalizmə aid mütəmadı tədbirlər təşkil olunur, beynəlxalq və regional əhəmiyyətli konfranslar, seminarlar keçirdilir. Bu qəbildən olan tədbirlər içərisində Bakı Beynəlxalq Humanitar Forumu xüsusi bir mövqeyə malikdir.

Prezident İlham Əliyevin yeritdiyi proqressiv daxili və xarici siyasət nəticəsində Azərbaycan dünya ölkələri arasında özünün müstəqil siyasəti, sosial-iqtisadi və mədəni inkişafı ilə xüsusi yer tutur. Şərqin və Qərbin kəsişmə nöqtəsində yerləşən ölkəmiz hər iki mədəniyyətin ən yaxşı dəyərlərinə sahib olmağa çalışır və bu mədəniyyətlərarası dialoq anlayışı da olduqca mühüm bir əhəmiyyət kəsb etməkdədir. Çünki mədəniyyət həm cəmiyyətə və həm də ayrı-ayrı fərdlərə mühüm təsir göstərə biləcək geniş spektli bir anlayışdır. Xüsusilə də, keşməkeşli və mürəkkəb siyasi şəraitdə Şərq-Qərb mədəniyyətlərinin bir-birinə qarşılıqlı dailoqu olduqca mühüm bir faktordur. Müxtəlif və bəzən də bir-birinə əks olan ideyaları özündə ehtiva edən mədəniyyətlərin arasındakı dialoq beynəlxalq təhlükəsizlik faktoruna da ciddi bir təsir göstərir. Bu faktı inkar etmək olmaz.

Müasir dövrdə dünyada bir sıra münaqişələr, qarşıdurmalar mövcuddur, və çox təsüflər olsun ki, bu münaqşələrin kökündə etnik, dini, irqi və mədəni fərqliliklər durur. Bu gün dünyada mədəni tarazlığın bərpa olunması üçün multikluturalizmin, mədəniyyətlərarası dialoqun rolu olduqca önəmlidir. Məhz bu kimi təqdirəlayiq amillər vasitəsilə neqativ mahiyyətli tendensiyaların qarşısını almaq mümkündür.

Çünki, dünya getdikcə qlobal bir kənd halını almaqdadır. Artıq ayrı irq, din və mədəniyyətlərdən insanlar eyni məkanda yaşamaqdadır. Bu səbəblə multikultural həyata uyğunlaşmaq və müxtəlif mədəniyyətlərdən insanlarla dialoq qurmağımız gözlənilən prosesdir.

Nəticədə həm mədəniyyətlərarası, həm də dinlərarası əlaqələr vasitəsi ilə ortaya çıxacaq yaxınlaşmalar fərqli mədəniyyət və ehtiva olunan müsbət əxlaqi dəyərlər, mənəvi keyfiyyətlər, özünəməxsusluq, orjinallıq həm öz varlığını qoruyur və eyni zamanda da bu mədəniyyətlər dünyaya tanıdılır. Həmçinin bu proses vasitəsilə milli mədəniyyətlər müasir dövrdə bəzən modernləşmə prosesinə məruz qalır, bəzən də ona yaxın olan daha mütərəqqi mədəniyyətlərə doğru istiqamətlənir.

Ümumiyyətlə, multikultural dəyərlər sisteminin bir sıra üstün xüsusiyyətləti var. Bu üstün xüsusiyyətlərdən də biri müxtəlif mədəniyyətləri təmsil edən hər bir fərdin özündərk prosesi ilə bağlıdır. Multikulturalzm siyasətinin mövcud olduğu ölkələrdə milli kimlik, milli özünüdərk prosesi də bilavasitə olaraq baş verir.

Multikulturalizmdə dünyanın dərk olunması əsas prinsip kimi qəbul olunur. Çoxmillətlilik və onun yaratdığı çoxmədəniyyətlilik özlüyündə dünyanın dərk olunmasını ehtiva edir.

Müasir dövrdə baş verən qloballaşma prosesinin yartdığı mürəkkəb və ziddiyyətli bir dövrdə milli mədəniyyətlərin assimliyasiya olunması, məhv edilməsi problemi ilə üz-üzədir. Belə bir mürəkkəb şəraitdə milli mədəniyyətlərin məhv olmaqdan qorunması faktı məhz multikulturalizm şəraitində reallaşa bilər. Qloballaşma və modernləşmə kimi proseslər milli mədəniyyətlər düzgün inteqrasiya olunması yönündə böyük əngəl törədir.

Qeyd edək ki, multikulturalizm prosesinin əsas qayəsi də elə məhz bu olmalıdır ki, milli mədəniyyətlər assimilyasiya prosesinə məruz qalmasın. Bu baxımdan da milli mədəniyyətlər assimlasiya olunmadan inteqrasiya olunmalıdır. Multikulturalizm etnomilli dəyərləri ümumdövlət və ümummilli dəyərlərlə vəhdətini təmin edə bilən model olmalıdır.

Multikulturalizm mənəvi cəhətdən tərəqqi etmiş, böyük mənəvi kamillik yolu keçmiş cəmiyyətlərə xas olan bir xüsusiyyətdir. Bu baxımdan multikulturalizm prosesi qədim tarixə malikdir. Multikulturalizm prosesində mədəni-dini müxtəlifliklər, müxtəlif milli və dini cəmiyyətlər arasında olan ziddiyyətlər qarşılıqlı anlaşma yolu ilə həll olunur. Ksenofobiya, islamfobiya, irqi, dini və etnik ayrı-seçkilik, antisemitizm kimi məhfi xüsusiyyətlərə qarşı məhz multikulturalizmlə silahlanmaq olduqca vacib bir nüansdır.

Göründüyü kimi multikulturalizmin əsas mahiyyətində etnik və dini zəmində baş verən dialoq, düzgün inteqrasiya prosesi durur. Bu baxımdan da multikulturalizmin əsas qayəsi sülh, humanizm, tolerantlıq şəraitində birgəyaşayış durur. Multikulturalizmin əsas qayəsində müxtəlif dinə siyayiş edənlərin, müxtəlif dildə danışanların qaşılıqlı dialoqudur.

Ümumiyyətlə, polietnik və polikonfessional cəmiyyətlərdə multikulturalizm universal dəyərlər sistemi prinsipi kimi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan da polietnik və polikonfessional mahiyyətə malik olan ölkəmizdə universal dəyərlər sistemi prinsipi aparıcı bir xüsusiyyət kəsb edir. Hazırda Azərbaycan Respublikasının ərazisində müxtəlif etnoslar, müxtəlif dinin nümayəndələri bir-biri ilə sülh və qarşılıqlı əməkdaşlıq şəkilində yaşayırlar.

Müasir dövrdə qloballaşma prosesindən kənarda qalmaq qeyri-mümkündür. Qloballaşma prosesi ilə milli dövlətçilik, milli-mənəvi dəyərlər prosesi arasında ziddiyyət də mövcuddur. Milli özünüdərk, milli ləyaqət siyasi qloballaşmanın əsas problemidir. İnteqrasiya prosesinin qaçılmaz olduğu bir zamanda milli-mənəvi əxlaqi və tərbiyəvi dəyərlərimizin qorunmasına qayğı və maraq daha da artmışdır. Çünki, qloballaşmanın ziddiyyətli gedişatından doğan bu zərurət cəmiyyət həyatının bütün sahələrini əhatə etmişdir.

Azərbaycanda multikulturalizm bu gün öz milli-mənəvi qaynaqlarından qidalanaraq möhtəşəm bir dövrünü yaşayır. Hər bir milli azlıqların iqtisadi-sosial sahələrlə yanaşı, onun milli mədəniyyətinin də hər vasitə ilə inkişaf etdirilməsini, bu mədəniyyətin özünəməxsusluğunun qorunub saxlanmasını, xalq ənənələrinin, mərasim və adətlərinin, mənəvi dəyərlərinin dirçəldilməsini və eyni zamanda xarici ölkələrlə mədəni əməkdaşlığı genişləndirməklə bədii və qarşılıqlı yaradıcılıq əlaqələrinin bir daha möhkəmləndirilməsini tələb edir.

**_Altay_**

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

10 dekabr

# Ronaldodan Messiyə göz dağı!




***Futbol üzrə UEFA Çempionlar Liqasının 6-cı turuna start verilib. AZƏRTAC xəbər verir ki, turun maraq doğuran görüşü G qrupunda yer alan “Barselona” (İspaniya) və “Yuventus” (İtaliya) komandaları arasında olub. “Nou Kamp” stadionunda baş tutan görüşdə “Yuventus” klubu qələbə qazanıb - 1:3.***

Oyunda hesab 13-cü dəqiqədə açılıb. Kriştiano Ronaldo hakimin təyin etdiyi penaltini dəqiq yerinə yetirib. Qoldan yeddi dəqiqə sonra Turin təmsilçisi hesab arasındakı fərqi iki topa çatdırıb. Veston Makkenni adını tabloya yazdırıb. Fasilədən sonra (52-ci dəqiqə) “qoca sinyora” rəqibi üçüncü dəfə meydanın mərkəzindən başlamağa məcbur edib. Kriştiano Ronaldo dublun rəsmiləşdirib.

Görüş “Yuventus”un qələbəsi ilə başa çatıb. Bu nəticədən sonra turinlilər xal ehtiyatını 15-ə çatdıraraq turnir cədvəlində liderliyə yüksəlib. “Barselona” da eyni xala malikdi, lakin şəxsi oyunlara görə “Yuventus” qrup mərhələsini lider kimi başa vurub.

Qrupun digər paralel keçən görüşündə “Dinamo Kiyev” (Ukrayna) öz meydanında “Ferentsvaroş” (Macarıstan) komandasını məğlub edib - 1:0. Kiyev təmsilçisi UEFA Avropa Liqasında çıxış edəcək. Macarıstanlılar isə cari mövsüm avrokuboklarda mübarizəsini dayandırır.

E qrupunda formal xarakter daşıyan oyunlarda “Çelsi” (İngiltərə) öz meydanında “Krasnodar”ı (Rusiya), “Renn” (Fransa) isə “Sevilya”nı qəbul edib. “Sevilya” səfərdə qələbə qazansa da (3:1), “Çelsi” heç-heçə edib (1:1). Buna baxmayaraq hər iki komanda vaxtından əvvəl səkkizdəbir finala vəsiqələrini təmin etmişdilər. Görüş 2:2 hesablı heç-heçə ilə başa çatıb. Bu nəticədən sonra qrupda 10 xal toplayan “Latsio” UEFA Çempionlar Liqasının pley-off mərhələsinə vəsiqə qazanıb.

Digər oyunda Almaniyanın “Borussiya Dortmund” klubu səfərdə Rusiyanın “Zenit” komandasının qonağı olub. Bu oyun hər iki komanda üçün formal xarakter daşıyırdı. Belə ki, “Borussiya Dortmund” səkkizdəbir finala vəsiqəni vaxtından əvvəl qazanmışdı, “Zenit” isə 1 xalla UEFA Avropa Liqasında mübarizə aparmaq şansını itirmişdi.

Bu qarşılaşma Dortmund təmsilçisinin 2:1 hesablı qələbəsi ilə başa çatıb. Beləliklə, “Borussiya Dortmund” və “Latsio” növbəti mərhələyə vəsiqəsini təmin edib. “Brügge” UEFA Avropa Liqasında iştirak edəcək. “Zenit” isə cari mövsüm avrokuboklarda mübarizəsinə dayandırır.

# “Barselona”dan daha bir anti-rekord: 14 il sonra qrup ikincisi oldu




“Barselona” 14 il sonra ilk dəfə UEFA Çempionlar Liqasının qrup mərhələsini ikinci sırada tamamlayıb. Bu nəticə katalon təmsilçisi üçün böyük anti-rekord sayılır. İspaniya mətbuatının yazdığına görə, Kataloniya klubu ötən gecə 6-cı turda “Yuventus”a uduzmaqla (1:3) liderliyi itirib. Yekunda bu komandalar arasında xallar (15) bərabərləşsə də, Turin təmsilçisi ilk pilləyə yüksəlib. “Barselona” isə geriləyərək, ikini yerə enib.

Komanda” sonuncu dəfə 2006/07-ci illər mövsümündə belə nəticə göstərib. Həmin mövsüm “Barselona 11 xalla aktivində 13 xal olan “Çelsi”dən geri qalıb.

# İlon Mask dünyanın ən varlıları arasında ikinci yerə yüksəlib



***“Tesla” və “SpaceX” kompaniyalarına rəhbərlik edən amerikalı sahibkar İlon Mask “Forbes” jurnalının tərtib etdiyi dünyanın ən varlı insanları reytinqində ikinci pilləyə yüksəlib.***

“Forbes” jurnalının yazdığına görə, İlon Maskın varidatı 144,7 milyard dollar həcmində qiymətləndirilir. O, Fransanın LVMH (Louis Vuitton Moet Hennessy) kompaniyalar qrupunun baş direktoru Bernar Arnonu (144,3 milyard dollar) ikinci yerdən üçüncü mövqeyə sıxışdıra bilib.

Reytinqə əvvəlki kimi, dünyanın ən böyük onlineriteyleri olan “Amazon” kompaniyasının sahibi Ceff Bezos başçılıq edir (185,4 milyard dollar). Siyahıda dördüncü və beşinci yerləri isə müvafiq olaraq “Microsoft” kompaniyasının qurucularından biri olan Bill Qeyts (118,8 milyard dollar) və “Facebook” sosial şəbəkəsinin rəhbəri Mark Sukerberq (104 milyard dollar) tutur.

# İki yol qəzasında iki nəfər öldü...

Respublikanın daxili işlər orqanları ötən gün ərzində törədilmiş 22 cinayətin üstünü “isti izlər”lə açıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış dörd cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 30 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 11 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş iki ağır yol-nəqliyyat hadisəsi nəticəsində iki nəfər ölüb, iki nəfər xəsarət alıb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 13 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 29 nəfər saxlanılıb.




## ELAN

**Paşayev Elmar Elman oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

## Başsağlığı

“SƏS” Mediya Qrupunun adından Bəhruz Quliyev Naxçıvan Muxtar Respublikası Dövlət Televiziyasının sədri Sahil Tahirliyə atası Abdulla müəllimin vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in kompüter mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**